

XANKƏNDİYƏ MARŞRUT XƏTTİ AÇILIR

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev: "Hətta biz artıq müsabiqələr elan etmişik. Bərdə-Xankəndi, Bakı-Laçın marşrutu müsabiqəyə çıxarılıb, müsabiqə qalibləri elan ediləcək və tezliklə fəaliyyətə başlayacaq".

SƏHİFƏ 3-də

MƏTBUATIMIZ 149 YAŞINDA

Mediamız daim inkişafa can atan dinamik strukturdur. Milli dəyərlərin təbliğində mühüm rol oynayan mətbuatımızın bu günü ilə bağlı bu sahənin peşəkarları ilə söhbətləşdik.

Həsən bəy Zərdabi tərəfindən 1875-ci il iyulun 22-də nəşr olunan "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız 149 yaşına çatır. Mətbuat Şurasının sədri Rəşad Məcid bildirdi ki, jurnalistlərimizin daha təminatlı yaşamasını arzulayır: "Milli mətbuatımızın ildönümləri qazandıqlarımızı və qazanmadıqlarımızı nəzərdən keçirmək üçün fürsət verir".



"Report" İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev hesab edir ki, bugünkü Azərbaycan mətbuatı inkişafdadır və son tendensiyaları da mediada tətbiq etməyi bacarır. Lakin bəzi problemlərimiz hələ də qalır: "Əsas problemlərdən biri sosial şəbəkələrdəki yoxlanılmamış xəbərlərin mətbuat səhifələrinə sıçramasıdır".

SƏHİFƏ 7-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

Qiyməti - 40 qəpik | 20 İYUL ŞƏNBƏ 2024 I 27 (4178) | www.kaspi.az





PREZİDENTİN SON SƏFƏRİNDƏN ÇIXAN NƏTİCƏLƏR

USTA GEDİŞLƏR, UĞURLU NƏTİCƏLƏR

Azərbaycan istər iqtisadi, istərsə də siyasi cəhətdən bir-birinə əks mövqedə dayanan mərkəzlərlə əməkdaşlığı çox ustalıqla həyata keçirir. Bu siyasətin əsasında ölkənin ali rəhbərliyinin üstün diplomatik bacarığa və zəkaya sahib olması dayanır.

QƏRBLƏ ŞƏRQİ BİRLƏŞDİRƏN MƏRKƏZ

Prezident İlham Əliyevin yaxın keçmişdəki beynəlxalq və regional təmasları ölkəmizin diplomatik fəallığının miqyasının genişliyini göstərir. Qeyd edək ki, Britaniya səfərindən əvvəl Prezident İlham Əliyev ikinci dəfə ali qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən zirvə toplantısına qatılıb.

TAM MÜSTƏQİL XARİCİ SİYASƏT

Son dörd ildə Azərbaycan tam müstəqil xarici siyasət həyata keçirir. 30 illik işğala son qoyulması fonunda Bakının iqtisadi və siyasi potensialını dünyaya təqdim etməsi beynəlxalq güc mərkəzləri tərəfindən də təqdirlə qarşılanır. İndi isə qarşıda COP29 sammiti dayanır.

SƏHİFƏ 2-də

75 yaşlı rejissorla maraqlı söhbət

"REJİSSOR BİLMƏLİDİR Kİ, TAMAŞAÇILARA NƏ TƏQDİM EDİR"



Xalq artisti, "Şöhrət" ordenli teatr rejissoru Mərahim Fərzəlibəyov 75 yaşını qeyd edir. Yarım əsrə yaxın rejissorluq fəaliyyəti ilə o, Azərbaycan teatr sənətinə bir-birindən maraqlı, tamaşaçıların yaddaşından silinməyən tamaşalar, müxtəlif səpkili rollar bəxş edib. Yubilyarın teatrımızın inkişafı ilə bağlı arzuları da çoxdur.

SƏHİFƏ 8-9-da



SÜLHÜ YOX, SİLAHLANMANI SEÇDİLƏR

Fransa Makronun timsalında Ermənistanı silahlandırmağa davam edəcəyini açıqlayır. İrəvan rəhbərliyi isə Britaniyada Bakı ilə ikitərəfli danışıqlardan imtina edir. Bununla da növbəti dəfə bölgədə sülhün əldə olunması imkanlarını yox etməyə çalışır.

SƏHİFƏ 3-də



TƏLƏBƏLƏRİN QAYĞILARINI AZALDACAQ KART

Yaxın vaxtlarda Azərbaycanda tələbələr üçün vahid kartın yaradılması planlaşdırılır. Sözügedən kart ölkə üzrə bütün universitetlərin tələbələri üçün nəzərdə tutulub. Buraya əyani, qiyabi, ödənişli və ödənişsiz əsaslarla təhsil alan tələbələr daxildir.

SƏHİFƏ 11-də



İRANLI DİPLOMATI AZƏRBAYCANA QARŞI KİM KÖKLƏYİR?

Barışmaq özünəinamın göstəricisidir. İrandakı səfirliyimizin işinin bərpası bu qədər ədalətsizliyə rəğmən regional sülh və sabitlik naminə atılmış effektiv addımdır. Bu gedişlə rəsmi Bakı xoş məramını nümayiş etdirir.

SƏHİFƏ 4-də



REGİONA YAYILAN "BARIT QOXUSU"

Azərbaycan tərəfdaşlıq münasibətlərini hansısa gücə qarşı əzələ nümayişi konstruksiyası kimi qurmur. Ermənistan isə NATO-nu regiona Rusiyaya qarşı cəbhə açmaq üçün gətirir.

SƏHİFƏ 6-da



İSTİFADƏÇİLƏRİ DƏ ARTIR, İSTEHSALI DA

Ekspertlər siqaret istehsalının artmasını siqaretdən istifadə edənlərin sayının artması ilə əlaqələndirirlər. Bu problemin qarşısını almaq üçün inzibati tədbirlərin sərtləşdirilməsi təklif edilir.

SƏHİFƏ 13-də



Azad edilən rayonların xəritələri hazırlanıb

SƏHİFƏ 14-də




Həm bağça, həm də valideyn qazanır

SƏHİFƏ 12-də



Bir güllənin dəyişdiyi reallıqlar

SƏHİFƏ 10-da



Ramizin hər yerdə izi qalır

SƏHİFƏ 15-də



Luis de la Fuente - sistem adamı

SƏHİFƏ 16-da

USTA GEDİŞLƏR, UĞURLU NƏTİCƏLƏR

Azərbaycan istər iqtisadi, istərsə də siyasi cəhətdən bir-birinə əks mövqedə dayanan mərkəzlərlə əməkdaşlığı çox ustalıqla həyata keçirir. Bu siyasətin əsasında ölkənin ali rəhbərliyinin üstün diplomatik bacarığa və zəkaya sahib olması dayanır.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tam təmin etməsinin bir çox yeni imkanlar açdığı şəksizdir. Bu, qələbə nəticəsində bölgəmizdə yaradılan yeni reallıqlar fonunda yürüdülən siyasətin müxtəlif konturlarında da açıq şəkildə özünü büruzə verir. Xüsusilə də regional və qlobal əməkdaşlıq sahəsində.

BAKININ YENİ HƏDƏFLƏRİ

Son bir ayda Azərbaycan ali rəhbərliyinin iştirakı ilə istər ikitərəfli, istərsə də çoxtərəfli platformalarda mühüm görüşlər və müzakirələr aparılıb. Son olaraq Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısında iştirak edib. Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidentinin Almaniya, Böyük Britaniya, Çexiya, Macarıstan və digər ölkələrin dövlət və hökumət başçıları, NATO, Avropa İttifaqı rəhbərləri ilə ikitərəfli görüşləri reallaşıb. Bu görüşlərdə bir daha ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyinin təminindəki rolu xüsusi qeyd edilib, Azərbaycanın Cənubi Qafqazda reallaşdırdığı sülh gündəliyinə dəstək ifadə olunub. Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda dəyirmi masada çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırıb. Bu, çox böyük məsuliyyətdir: "Əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var".

Dövlət başçısı deyib ki, bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. "İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir", - Prezident İlham Əliyev bildirib.

Beləliklə, bu səfər çərçivəsində növbəti dəfə ölkənin milli maraqlarına xidmət edən Bakının xarici siyasət konsepsiyasının beynəlxalq səviyyədə artıq qəbul edildiyinin şahidi olduq.

QƏRBLƏ ŞƏRQİ BİRLƏŞDİRƏN MƏRKƏZ



Prezident İlham Əliyevin Böyük Britaniya səfəri Bakının siyasi rəhbərliyinin yaxın keçmişdəki beynəlxalq və regional təmasları fonunda dəyərləndirildikdə ölkəmizin diplomatik fəallığının miqyasının genişliyi xüsusilə nəzərə çarpır. Qeyd edək ki, son bir ayda Prezident İlham Əliyev ikinci dəfə ali qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən zirvə toplantısına qatılıb. Bu səfər Bakının tək Qərbin yox, eləcə də Şərqin geosiyasi və qlobal planlarında mühüm mövqeyə malik olduğunun təsdiqidir. Hazırda dünya siyasətini formalaşdıran əsas siyasi və iqtisadi güc mərkəzlərindən hesab edilən Çinlə Azərbaycanın strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalaması ölkəmizin beynəlxalq platformalardakı mövqeyini daha da sağlamlaşdırır. Bakının istər regional, istərsə də beynəlxalq təşəbbüslərinə dünya miqyasında dəstəyin yeni bir mərhələyə qədəm qoyduğunu söyləməyə əsas verir.

YENİ ƏMƏKDAŞLIQ PLATFORMASI

Bu siyahıya Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü və Qarabağ Bəyannaməsinin imzalanmasını, Azərbaycan Prezidentinin bu günlərdə müsəlman dünyasında yeganə nüvə gücü olan Pakistana dövlət səfərini də əlavə edə bilərik. Əslində bu iki proses Azərbaycanın xarici siyasətində yeni əməkdaşlıq platformasının qurulması istiqamətində növbəti təşəbbüs kimi qiymətləndirilə bilər. Astanada Pakistan-Türkiyə-Azərbaycan üçlü müzakirələrinin ardınca Prezident İlham Əliyevin İslamabada səfəri zamanı Orta Dəhlizin tranzit imkanlarının müzakirəsi Türkiyə-Azərbaycan-Mərkəzi Asiya-Pakistan platformasının nəzərdən keçirildiyini söyləməyə əsas verir.



DİPLOMATİK BACARIQ VƏ ÜSTÜN ZƏKA

Bakı indi də iqtisadi cəhətdən dünyanın sürətlə inkişaf edən, qlobal ticarət zəncirində payını əhəmiyyətli dərəcədə artıran BRİKS-lə münasibətlərinin gücləndirilməsi imkanlarını araşdırır, bu təşkilata üzvlükdə maraqlı olduğunu bəyan edir. Göründüyü kimi, Azərbaycan qərblə ənənəvi enerji əməkdaşlığını inkişaf etdirməklə yanaşı, həm də iqtisadi cəhətdən yeni bazarlara çıxış üçün tam əks istiqamətdə fəaliyyətini genişləndirir. Burada diqqət yetirilməli olan xüsusi məqam ondan ibarətdir ki, rəsmi Bakı istər iqtisadi, istərsə də siyasi cəhətdən bir-birinə əks mövqedə dayanan bu mərkəzlərlə əməkdaşlıq kursunu çox ustalıqla, maraqların toqquşmasına imkan vermədən həyata keçirir. Bu siyasətin əsasında isə Azərbaycanın ali rəhbərliyinin diplomatik bacarıq və üstün zəkaya sahib olması dayanır. Buraya regional əməkdaşlıq istiqamətində atılan addımları da əlavə edərik. İranda səfirliyimizin yenidən fəaliyyətə başlaması, Tehranla əməkdaşlıqda yeni bir səhifənin açılması da diqqətəlayiqdir.

İNDİ İSƏ QARŞIDA COP29 İQLİM KONFRANSI VAR

COP29 Baku Azerbaijan
UN CLIMATE CHANGE CONFERENCE

Göründüyü kimi, son dörd ildə Azərbaycan artıq tam müstəqil xarici siyasət həyata keçirir. Bu istiqamətdə qarşısındakı ən böyük əngəl sayılan 30 illik işğal faktına son qoyulması Bakının sahib olduğu istər iqtisadi, istərsə də siyasi potensialını geniş miqyasda dünyaya təqdim etməsi ayrı-ayrı beynəlxalq güc mərkəzləri tərəfindən də təqdirlə qarşılanır. İndi isə qarşıda COP29 sammiti dayanır. Bu sammitin əsas gündəliyi və şüarı da elə Bakının həyata keçirdiyi beynəlxalq əməkdaşlıq kursuna tam uyğundur: Qlobal şimalla qlobal cənub arasında konsensusun əldə edilməsi. Dünyanın BMT-dən sonra ən böyük beynəlxalq təşkilatı sayılan Qoşulmama Hərəkatına sədrlik zamanı nümayiş etdirilən liderlik keyfiyyəti COP29 çərçivəsində qarşıya qoyulan hədəflərə də nail olunacağını söyləməyə əsas verir.



Xankəndiyə marşrut xətti açılır

"Hətta biz artıq müsabiqələr elan etmişik. Bərdə-Xankəndi, Bakı-Laçın marşrutu müsabiqəyə çıxarılıb, müsabiqə qalibləri elan ediləcək və tezliklə fəaliyyətə başlayacaq".

"Laçın, Şuşa, Xankəndi istiqamətində nəqliyyatın təminatı sistemi hazırlanır". Oxu.az xəbər verir ki, bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev sektorda qanunvericiliyin təkmilləşdirilməsinə dair keçirilən brifinqdə bildirib. O qeyd edib ki, Qarabağda həm şəhərlərarası, həm də şəhərlər daxili sərnişindaşımanın həyata keçirilməsi üçün işlər gedir: "Hətta biz artıq müsabiqələr elan etmişik. Bərdə-Xankəndi, Bakı-Laçın marşrutu müsabiqəyə çıxarılıb, müsabiqə qalibləri elan ediləcək və tezliklə fəaliyyətə başlayacaq".

A.Rzayev qeyd edib ki, yeniliklərin tətbiqi Böyük Qayıdış çərçivəsində işğaldan azad edilmiş ərazilərdə məskunlaşan vətəndaşlarımızın daha keyfiyyətli nəqliyyat infrastrukturu və xidmətləri ilə təmin olunmasına da öz töhfəsini verəcək: "AYNA-nın tələbata və hazır olan yol infrastrukturuna uyğun olaraq Bakı-Şuşa, Bakı-Ağdam, Bərdə-Ağdam, Əhmədbəyli (Füzuli)-Şuşa, Tərtər şəhəri-Talış kəndi, Horadiz (Füzuli)-Ağalı (Zəngilan), Horadiz (Füzuli)-Hadrut (Xocavənd), Horadiz (Füzuli)-Laçın istiqamətlərində avtobus marşrutları fəaliyyət göstərir. İşğaldan azad olunmuş digər ərazilərdə təhlillər aparılır. Vətəndaşlar yolumuzqarabaga.az portalında qeydiyyatdan keçərək fərdi minik avtomobilləri ilə Şuşa şəhərinə, Suqovuşan qəsəbəsinə və Laçın şəhərinə səfər edə bilirlər. Fərdi minik avtomobillərində səfər üçün 1 sürücü olmaqla maksimum 9 nəfərə icazə alına bilər".

SÜLHÜ YOX, SİLAHLANMANI SEÇDİLƏR

Fransa Makronun timsalında Ermənistanı silahlandırmağa davam edəcəyini açıqlayır. İrəvan rəhbərliyi isə Britaniyada Bakı ilə ikitərəfli danışıqlardan imtina edir. Bununla da növbəti dəfə bölgədə sülhün əldə olunması imkanlarını yox etməyə çalışır.



F.ABASOĞLU

Britaniyada "Avropa Siyasi Birliyi" 4-cü Zirvə toplantısı çərçivəsində Azərbaycanı birbaşa maraqlandıran bəzi mühüm açıqlamalar və bəyanatlar səsləndirildi. Bunlardan biri Ermənistan rəhbərliyinin iki ölkənin liderləri arasında Böyük Britaniyanın təşkilatçılığı ilə öncə üçtərəfli, daha sonra ikitərəfli görüşdən imtina etməsidir. Digəri isə bəlkə də elə birinci imtinanın səbəbkarı olan Fransa prezidenti Emmanuel Makronun növbəti təxribat xarakterli bəyanatıdır.

MAKRON YENƏ ARANI QARIŞDIRIR

Qeyd edək ki, Makron Ermənistanın silahlandırılması və bu addımların sülh prosesinə təhdid yaratması ilə bağlı məsələyə münasibət bildirərkən Parisin təxribata hesablanan pozucu fəaliyyətinə haqq qazandırıb. O, Parisin İrəvanı silahlandırmaqda davam edəcəyinə eyham vurub. Hətta müharibəni birinci başlamaqla bağlı Azərbaycanı da ittiham edib.

Fransa prezidentinin məlum bəyanatına Bakının rəsmi reaksiyası özünü çox gözlətməyib. Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı açıqlamasında bildirilir ki, Makronun məlum bəyanatı Fransanın regionda gərginlik yaratmaq və sülh prosesinə mane olmaq cəhdlərinin daha bir bariz nümunəsidir: "Fransa tərəfinə xatırladırıq ki, Azərbaycanın suveren ərazilərində Ermənistanın 30 il davam edən işğalına son qoymaq, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün apardığımız müharibə ölkəmizin beynəlxalq hüquq çərçivəsində legitim hüququ idi. Azərbaycanın istənilən səyi, o cümlədən hərbi potensialının gücləndirilməsi ədalətli məqsədə yönəlib və yönəlməkdədir. Lakin, bunu işğalçı dövlət olan Ermənistana münasibətdə söyləmək olmaz".



PARİSİN SƏYLƏRİ HEÇ BİR NƏTİCƏ VERMƏYƏCƏK

Bəyanatda o da vurğulanır ki, 30 ilə yaxın Azərbaycan ərazilərini işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmış, kütləvi qırğınlar və insanlığa qarşı cinayətlər törətmiş Ermənistanın Fransa tərəfindən sülhsevər ölkə kimi təqdim edilməsi bu ölkənin həm vasitəçilik dövründə, həm də 44 günlük vətən müharibəsindən sonra apardığı siyasətin nə qədər ədalətsiz olduğunu nümayiş etdirir.

"Onu da xatırlatmaq istərdik ki, münaqişənin sülh yolu ilə həllinə töhfə verməyən, Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoymağın qarşısını alan məhz Fransa kimi dövlətlərin Ermənistanın 30 ilə yaxın müddətdə təcavüzünü ört-basdır edən siyasəti olub. Qeyd olunanları nəzərə alaraq bir daha bildiririk ki, Fransanın sülhə xidmət etməyən və regionda sabitliyi pozan səyləri heç bir nəticə verməyəcək", - bəyanatda vurğulanıb.

İRƏVAN BRİTANİYADA İKİTƏRƏFLİ GÖRÜŞDƏN NİYƏ QAÇDI?

Qeyd edək ki, Makronun sözügedən bəyanatları fonunda Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli görüşdən imtina etməsi də diqqət çəkir. Bəzi məlumatlara görə, erməni baş nazirin imtina qərarının arxasında da Makron dayanır. Belə ki, İrəvan görüşün əvvəlində Britaniya baş naziri ilə yanaşı, Fransa prezidentinin də iştirakını istəyib. Lakin Azərbaycan bu istəyi rədd edib. Bu iddialar erməni KİV-də yer alıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "Report"a açıqlamasında bildirib ki, Avropa Siyasi İcmasına ev sahibliyi edən Böyük Britaniya tərəfindən belə bir görüşün keçirilməsi təklifi ilə çıxış edilmişdir və bunun Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutmuş görüş formatında olması təklif olunurdu: "Belə ki, Münxen Təhlükəsizlik Konfransında da Almaniyanın kansleri Olaf Şolts görüşün əvvəlində iştirak etmiş və bundan sonra görüş ikitərəfli formatda Azərbaycan və Ermənistan arasında davam etmişdi. Böyük Britaniya tərəfindən ev sahibi olaraq eyni formatlı görüş təklif olunurdu. Amma Ermənistan tərəfi bundan imtina etdi. Belə ki, görüşün əvvəlində Britaniya Baş nazirinin iştirakı, sonra isə görüşün Azərbaycan və Ermənistan arasında davam etməsi formasında olmalı idi. Ermənistanın bu görüşdən imtina etməsini biz onun dialoqdan və sülh gündəliyinin irəli aparılmasından geri çəkilmək niyyətinin bir təzahürü kimi qiymətləndiririk.

Müxtəlif platformalarda Ermənistan sülh haqqında danışdığı halda sülh gündəliyinin irəli aparılmasına xidmət edən görüşdən imtina etməsi heç bir halda başadüşülən deyildir və beynəlxalq ictimaiyyət özü bunu dəyərləndirməlidir ki, Ermənistan əslində dialoq imkanlarını qiymətləndirmək, irəli aparmaq əvəzinə bundan imtina edir. Biz Böyük Britaniyanın belə bir sülh təşəbbüslüyünü öz tərəfimizdən yüksək qiymətləndiririk".

MEHDİ SOBHANİ AŞKAR ANTİ-AZƏRBAYCAN MƏZMUNLU BƏYANATLARI İLƏ NƏ DEMƏK İSTƏYİR?

İRANLI DİPLOMATI AZƏRBAYCANA QARŞI KİM KÖKLƏYİR?



Narazılıqları unutmaq və barışmaq özünəinamın göstəricisidir. Bu baxımdan İrandakı səfirliyimizin işinin bərpası bu qədər ədalətsizliyə rəğmən regional sülh və sabitlik naminə atılmış effektiv addımdır. Bu gedişlə rəsmi Bakı xoş məramını nümayiş etdirir.



RÜSTƏM QARAXANLI

Azərbaycanın Tehrandakı səfirliyi işini bərpa etdi. Ötən il diplomatik nümayəndəliyimizə edilən silahlı hücumdan sonra səfirliyin normal fəaliyyətinin bərpası aydındır ki, sadə məsələ deyil və mürəkkəb danışıqların nəticəsidir. Eyni zamanda, bu, rəsmi Bakının cənub qonşusuna doğru atdığı addım, xoş məram jestidir. Səfirliyimizə edilən hücum sıradan hadisə deyildi. Xüsusilə 44 günlük müharibənin gedişində və sonra rəsmi Tehranın ayrı-ayrı instansiyaları tərəfindən Azərbaycana münasibətdə aqressiv davranış adi hal almışdı.

AQRESSİV DİPLOMATİYANIN İFLASI

Azərbaycanın Tehrandakı səfirliyinin təqribən bir il ərzində işləməməsi yaşanan diplomatik gərginliyə rəsmi Bakının adekvat reaksiyası idi. Hamı bilir ki, bu hücum sadə vətəndaş cinayəti deyildi. Çünki sıravi iranlının diplomatik nümayəndəliyimizə silahla soxulmasının dövlətlərarası və geosiyasi müstəvidə də eynisi yaşanırdı: II Qarabağ savaşı günlərində qonşuluq münasibətlərinə xoş olmayan bəzi xəbərlər geniş ictimaiyyət üçün də müzakirə mövzusu olmuş və dərin təəssüf hissi yaratmışdı. Qonşuluqdan savayı, İslam dövləti olan İranın onillərdir müsəlman azərbaycanlıların qətlinə, deportasiyasına, Qarabağdakı məscidlərimizin dağıdılmasına qeyri-adekvat münasibəti cəmiyyətimizdə cənub qonşumuz haqqında təsəvvürlərin formalaşmasına təsir etməyə bilməzdi.

Son üç il göstərdi ki, Tehran 44 günlük müharibə ərzində nümayiş etdirdiyi arzuolunmaz siyasəti davam etdirmək niyyətindədir. İran rəsmilərinin ən yüksək səviyyədə Zəngəzur dəhlizinə münasibətdə qısqanc və qızışdırıcı reaksiyası, tarixi Azərbaycan torpağı olan bu bölgədə ilk konsulluğu açması, İrəvana göstərilən güclü diplomatik dəstəyin göstəricisi idi. Durum regional siyasi tarazlıq baxımından o qədər anormal görüntü almışdı ki, yarıməsrlik düşmənlər - ABŞ ilə İranın, NATO ilə Tehranın maraqları üst-üstə düşürdü. Üstəgəl, İranın ölkəmizə münasibətdə ikitərəfli platformada da aqressiyaya meylli davranışları, məsələn, düz sərhəddə hərbi təlimlər keçirməsi təəssüf doğuran hadisə idi. Təbii ki, Azərbaycanın da bu reallığa münasibəti adekvat olmalı idi və hazırki gerçəklik cənub qonşumuzun bu canfəşanlığının iflas etdiyinin, Bakının isə daha bir regional diplomatik qələbə qazandığının göstəricisidir.

SƏFİRLİK NİYƏ BƏRPA OLUNDU?

Narazılıqları unutmaq və barışmaq özünəinamın göstəricisidir. Bu baxımdan səfirliyimizin işinin bərpası bu qədər ədalətsizliyə rəğmən regional sülh və sabitlik naminə atılmış effektiv addımdır. Bu gedişlə rəsmi Bakı xoş məramını nümayiş etdirir. Sürətlə dəyişən bölgəmizdə qlobal iqtisadi, logistik və infrastruktur layihələr həyata keçirilir. Bu layihələrdən hər iki tərəfin eyni dividendləri əldə etməsi mümkündür. Ancaq bir şərtlə: ötən əsrdə qalmış hərbi-siyasi intervensiya cəhdləri unudulmalıdır. XXI əsrin reallıqları tarixi mifləri, kaprizləri və iddiaları inkar edir. Süni intellektin artan rolu şəraitində bölgədəki sərhədlərə və logistik marşrutlara orta əsr vizyonu ilə baxmaq mümkün deyil.



İran paslanmış hərbi arsenalını dəyişməyə can atdığı kimi, regional dəyişikliklərə də adekvat baxış sərgiləməlidir.

SƏFİR ÖZFƏALİYYƏTİ, YOXSA İKİBAŞLI SİYASƏT?

Təəssüf ki, Tehrandakı səfirliyimizin işə başlaması İran-Azərbaycan münasibətlərinə pozitiv prizmadan baxmaq üçün yetərli deyil. Qonşumuzun ikibaşlı xarici siyasəti ola bilsin ki, "Şərq incə məsələdir" deyiminin reallıqdakı təcəssümüdür. Ancaq ikitərəfli və regional müstəvidə problemlərin heç də hamısının aradan qalxmadığının əlamətidir. Söhbət bu ölkənin Ermənistandakı səfiri Mehdi Sobhaninin aşkar anti-Azərbaycan məzmunlu bəyanatlarından gedir. Səfir Azərbaycana münasibətdə aqressiv və yalan dolu bəyanatlar verməkdə davam edir. Onun davranışları elə bir absurd həddə çatıb ki, diplomatın sanki özfəaliyyətlə məşğul olması təəssüratı yaradır. Sobhaninin son müsahibəsində "Qarabağdan deportasiya edilən ermənilərin hüquqları" mövzusunda açıqlamaları ironiya və yüngül sarkazm doğurur. Ermənistan hökuməti üçün belə aktual olmayan bir mövzunun İran səfirini narahat etməsi, onun insan hüquqlarına dair mülahizələr irəli sürməsi gülünc deyilmi? İran və insan hüquqları?

PARANOİK DİPLOMATIN HƏDYANLARI



Mehdi Sobhani

Sobhaninin dövlətinin elan etdiyi prioritetlərdən xəbərsiz olduğunu düşünmək sadəlövhlük olardı. Ola bilsin ki, Tehranda Azərbaycanla xoş münasibətlərə can atanlar kimi, əks mövqedə olanlar da var. Sobhani də həmin o köhnə qvardiyanın təmsilçilərindəndir, ilişib qalıb Ermənistan bataqlığında. Sızan məlumatlara görə, o, İranın yeni seçilmiş azərbaycanlı prezidentinə olduqca neqativ münasibət bəsləyir. Ancaq gerçəklik budur ki, ikitərəfli münasibətlər üçün bir yara rolunda çıxış edən diplomatın nəinki bu kimi bəyanatları davam etdirməsi, hətta onun Ermənistandakı səfir vəzifəsində qalması belə Tehran-Bakı münasibətlərində arzuolunmaz amilə çevrilir. Onun yaxın müddətə diplomatik fəaliyyətini bölgəmizdən uzaqda, məsələn, şərti Nikaraquada davam etdirməsi Tehrandakı yeni hakimiyyətin atdığı ən ağıllı addımlardan biri ola bilər. Ciddi dövlətlər ikitərəfli münasibətləri bir paranoik diplomatın güdazına vermirlər... Prezident İlham Əliyevin İranın sabiq dövlət başçısı İbrahim Rəisi ilə Araz çayı üzərindəki görüşü ilə başlanan normallaşma prosesinin Tehrandakı yeni hakimiyyətlə davam etdirilməsi üçün ciddi imkanlar var. Ancaq ikitərəfli münasibətlər yalnız bir tərəfin iradəsi ilə düzəlməz.

Nağdı qoyub nisyəyə QAÇMAQ CƏHDİ

Paşinyanın Avrasiya İqtisadi İttifaqı ilə bağlı yürütdüyü siyasət Kremlin səbir kasasını daşırmaq üzrədir. Ermənistan bu ittifaqdan uzaqlaşarsa, ölkənin ixracı ciddi gömrük rüsumlarına məruz qalacaq.

F.ABASOĞLU



Ermənistan Avrasiya İqtisadi İttifaqı (Aİİ) qalmaqda davam edir. Amma Paşinyan hökuməti ölkənin inteqrasiya istiqamətini dəyişməyə meylli olduğunu gizlətmir. Mütəmadi olaraq müxtəlif səviyyələrdə Avropa İttifaqına (Aİ) üzvlük üçün ərizə təqdim etmək barədə bəyanatlar səsləndirirlər.

Amma bu tendensiya ölkə üçün təhlükəlidir. Bir-birinə rəqib olan iki strukturun ikisinə də can atmaq, ikisindən də faydalanmaq istəyi çox ciddi nəticələrə səbəb ola bilər. Aİİ hər nə qədər iqtisadi birlik olsa da, özündə siyasi komponentləri ehtiva edir. Aİ isə hər şeydən öncə siyasi bir qurum olduğunu gizlətmir.

İKİ ADAXLISI OLAN QIZ SİYASƏTİ

Qeyd etmək yerinə düşər ki, erməni hökumətinin, xüsusən də baş nazir Paşinyanın iki adaxlısı olan qız kimi siyasət yürütməsi artıq Kremlin səbir kasasını daşırmaq üzrədir. Ermənistanda Aİ-yə üzvlüklə bağlı referendum keçirmək və məsuliyyəti xalqın üzərinə atmaq kimi fikirlərin dövriyyəyə buraxıldığı bir zamanda Rusiya baş nazirinin müavini Aleksey Overçuk qeyd edib ki, Aİ və Aİİ bir araya sığmır, regiondankənar aktorların Ermənistana daxil olması ciddi nəticələrə səbəb ola bilər. Bu açıqlamanı erməni siyasi elitası ciddi xəbərdarlıq kimi qəbul etməlidir. Çünki Moskvanın orbitindən və maraq dairəsindən çıxmaq erməni dövlətçiliyi üçün pis nəticələnə bilər. "Vətən naminə Tavuş" hərəkatının sentyabr ayında daha ciddi aksiyalara start verəcəyini nəzərə alsaq, Baqratın şimal küləyinin axınına qapıldığını əminliklə söyləmək olar. Hərəkatın arxa planında dayanan Ermənistanın sabiq prezidenti Robert Köçəryanın Rusiyadakı dayaqları erməni keşişə qol-qanad verir.

AVRASİYA İQTİSADİ İTTİFAQININ VERDİYİ FAYDALAR

Ermənistan Aİİ-yə üzvlükdən böyük faydalar əldə edib. Bu, xüsusilə son illərdə Rusiya-Ukrayna müharibəsi başlayanda özünü büruzə verdi. Genişmiqyaslı sanksiyalar şəraitində rəsmi İrəvan Rusiya iqtisadiyyatına xidmət edən mühüm həlqəyə çevrilib. Həm ixracın, həm də idxalın kəskin artması nəticəsində iki ölkə arasındakı ticarət dövriyyəsində ciddi artım müşahidə edilib. Bu artım Ermənistan iqtisadiyyatına o qədər də fayda verməsə də, dövlət büdcəsinə kifayət qədər ciddi gəlirlər gətirir. Məhz bunun sayəsində xarici ticarət xidmətləri göstərən şirkətlər son zamanlar iri vergi ödəyiciləri siyahısına liderlik edir. Ticarət xidmətləri nəticəsində Ermənistana külli miqdarda pul daxil olur və bu, bank sisteminin yüksək gəlirliliyinə şərait yaradır. Bu, həmçinin dolayı yolla büdcə gəlirləri üzrə mənfəət vergisinin artırılması şəklində ifadə olunur. Ermənistanın son illərdə "dünya səviyyəsində" iqtisadi artımı da sırf Aİİ-nin diktə etdiyi amillərlə bağlıdır.



NƏTİCƏLƏR NƏ OLA BİLƏR?

Aİİ Ermənistan üçün təkcə sanksiyalar altında olan Rusiya iqtisadiyyatına xidmət baxımından faydalı olmayıb, həm də iqtisadiyyat üçün əsas bazardır. Bu təşkilatı itirməyin Ermənistan üçün nəticələrinin necə ağır olacağını təsəvvür etmək belə çətindir. Aİ-yə keçid zamanı Ermənistanın ixracı Aİİ-nin ciddi gömrük rüsumlarına məruz qalacaq və tamamilə istisna ediləcək. Erməni dövlətinin emal sənayesinin böyük hissəsi Rusiya bazarında reallaşır. Ona görə yox ki, bu bazar Ermənistan məhsulları üçün daha sərfəlidir, ona görə ki, digər bazarlarda və xüsusən də Aİ ölkələrinin bazarlarında onlar rəqabət qabiliyyətli deyil, standartlara və minimum tələblərə cavab vermir. Bu gün Aİİ ölkələrinə ixrac olunan yüzlərlə erməni məhsulu Qərb üçün maraqlı deyil. Çünki Aİ standartına uyğun adi sertifikat almaq üçün erməni iş adamları illərini sərf etməlidirlər.

İMTİYAZLARIN ƏLDƏN GETMƏSİ

Nəticələr göz qabağındadır. Son illərdə qeydə alınan xarici ticarətin yüksək artımı şəraitində Ermənistandan Aİ ölkələrinə ixracın həcmi hətta azalıb. Aİ bazarlarına çıxmaq şansı olmadığı halda Ermənistanın iqtisadiyyatını Aİİ-dən kəsmək ağır nəticələri olan macəradır. Ermənistanın Aİİ-də mövcudluğu ölkənin bir sıra mühüm strateji məhsullara tələbatının ödənilməsi baxımından da həyati əhəmiyyət kəsb edir. İrəvan Aİİ üzvlüyünə görə bir çox ilkin ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatını güzəştli qiymətlərlə təmin edir. Belə məhsullar arasında enerji daşıyıcıları, ərzaq buğdası da var.

SOSİAL VƏ MALİYYƏ MARAQLARI

Ermənistanın Aİİ ilə təkcə iqtisadi deyil, həm də sosial və maliyyə maraqları var. Buradan Ermənistana böyük həcmdə kapital daxil olur. Söhbət həm kommersiya, həm də qeyri-kommersiya transferlərindən gedir. Təkcə Rusiyadan Ermənistana bütün Aİ ölkələrinin cəmindən qat-qat çox pul köçürülür. Bu, Ermənistan üçün sosial əhəmiyyət kəsb edən məsələdir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

VAŞİNQTONUN ADDIMLARI SÜLH PROSESİNƏ TƏHDİDDİR

REGİONA YAYILAN "BARIT QOXUSU"



Azərbaycan tərəfdaşlıq münasibətlərini hansısa gücə qarşı əzələ nümayişi konstruksiyası kimi qurmur. Ermənistan isə NATO-nu regiona Rusiyaya qarşı cəbhə açmaq üçün gətirir.



AQŞİN KƏRİMOV

İkinci Qarabağ müharibəsindən sonra Rusiya-Ermənistan müttəfiqlik əlaqələrinin sütunları yerindən laxladı. Keçən dörd il ərzində İrəvanla Moskva qırılmış müttəfiqlik iplərini təmir etməyə çalışsa da, bu nəticə vermədi və tərəflərin ritorikası getdikcə dövlətlərarası düşmənçilik səviyyəsinə qədər inkişaf etdi. Rusiyadan üz döndərib Qərbin radiusuna sığınmaq meylini gücləndirən Ermənistan regionda geosiyasi ayırıcı xətlər yaradan predmetə çevrildi.

Bu əsnada Ermənistanın regionda geosiyasi münaqişə potensialını gücləndirəcək yeni bir addımı da tozanaq yaratdı.

RUSİYA İRANA PAS ATIR

Söhbət "Eagle Partner 2024" adı verilən ABŞ-Ermənistan birgə hərbi təlimlərindən gedir. Ermənistanla təlimlər beş apreldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli tamaşasının davamıdır.

Rusiyanın Xarici İşlər Nazirliyinin bəyanatında bu təlim elə təhlükəsizlikə təhdid ritorikası ilə şərh edilib. Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ilk olaraq Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını boykot etmək addımları fonunda təlimlərə qiymət verib. Rusiya diplomatiyasının kəskin və kəsərli diplomatik ifadələri ilə tanınan xanım siması bildirib ki:

- Bu təlimlər İrəvanın KTMT-də iştirakını dondurması və təşkilata qarşı açıq şəkildə mənfi bəyanatları fonunda keçirilir,

- Qərb ölkələri sülhlə bağlı hədəflərinin olduğunu bəyan etsə də, onlar üçün əsas məsələ geosiyasi layihələr üçün plasdarm yaratmaqdır,

- Qərb bütün gücü ilə İrəvanı regionda və onun ətrafında müxtəlif qarşılıqlı fəaliyyət formatlarına cəlb edir. Bunlar ilk növbədə Rusiya və İrana qarşı yönəlib.

TEHRAN HƏYƏCAN KEÇİRƏN TƏRƏF KİMİ GÖRÜNMÜR

"Eagle Partner" təlimi yeni olmasa da, onun Moskva-İrəvan xəttindəki kəskin qırılmaların artması fonunda baş tutması Kremli bərk qəzəbləndirib. Xanım Zaxarova bu qəzəbi və regional təhlükəsizlikdə məsuliyyəti bölüşmək üçün İrana da top atır. Düzdür, İran ötən il "Eagle Partner 2023" təlimlərinə etiraz etmişdi. Lakin bu etirazlar daha çox informasiya fonu idi və Tehran ABŞ-Ermənistan münasibətlərinin hərbi əsaslarının güclənməsindən elə də narahat tərəf kimi çıxış etmirdi. Bununla belə, İrəvanla Vaşinqton arasında təhlükəsizlik əlaqələrindəki "alovlu faza" regionda qarşıdurmaları artıran mərhələni təsvir etməyə imkan yaradır.

Çünki Ermənistan ABŞ-nin regional təmsilçiliyini artırmağa yardım etməklə Moskvadan əvəz çıxdığını düşünür ki, bu da bölgədəki təhlükəsizliyin həssas iplərini tərpədir. İran bu tərpənişlərin özünün qırmızı cizgilərinə yaxınlaşdığını hiss edəndə Ermənistana diş göstərir, ancaq hələlik Tehran dərin həyəcan keçirən tərəf kimi görünmür.



Mariya Zaxarova

AZƏRBAYCAN PROSESİ YÖNLƏNDİRİR

Azərbaycan prosesi regional təhlükəsizlikdə vahid qavrayışların çağırışı ilə izah etmək yolunu seçir. İrəvanla Vaşinqtonun əməkdaşlığı Azərbaycana imkan yaradır ki, o, strateji müttəfiqi Türkiyə ilə bərabər, Rusiya və İranın da eyni cəbhədə iştirakını təmin edən addımlar atsın.

ABŞ-Ermənistan təlimləri regionda qüvvələr nisbətinə təsir edən nəticə yaratmadığından Azərbaycan böyük narahatlıqlar içərisində deyil. Amma rəsmi Bakının strategiyasında regionda yaranmış Rusiya-Ermənistan qarşıdurmasını faydaya çevirmək prioritetləri dayanmaqdadır. Belə ki, Azərbaycan:

1. ABŞ-Ermənistan təlimləri fonunda Rusiya ilə strateji əlaqələrini gücləndirir, lakin bunu Kremlin masasındakı ambisiyalara inteqrasiya etmir. Bu məsələ regional təhlükəsizlikdə Azərbaycan-Türkiyə-Rusiya üçbucağının təsirlərini böyüdür.

2. Bakı Rusiyadan Ermənistana verilən "barıt qoxulu" mesajları Vaşinqtona təzyiq aləti kimi istifadə edir. Yəni Bakı Ağ Evin diqqətinə çatdırır ki, onun İrəvana xüsusi imtiyaz verməsi üçün atdığı hərbi addımlar Azərbaycan-Ermənistan sülh gündəliyinə zərərli elementlər qatır. Vaşinqton Bakı ilə strateji tərəfdaşlıq münasibətlərini nəzərə alaraq bu tezisləri tamamilə arxa plana atmır.

BAKI ÜSTÜNLÜK QAZANACAQ

Azərbaycanın Ermənistan üzərində əlavə həlledici üstünlüklər qazanacağı şübhə doğurmur. Lakin Qərb kuluarlarında prosesi qaranlıq tunelə çəkmək üçün Bakının imkanlarını məhdudlaşdırmaq planı üzərində iş gedir. Belə maneələrdən biri ABŞ-nin Ermənistanda nüvə reaktoru yaratmaq planıdır. Bu niyyət onsuz da bütün region üçün böyük təhlükə kəsb edən "Metsamor" AES-in gücləndirilməsinə xidmət edir. Yəni ABŞ Ermənistanı siyasi məna ilə yanaşı, fiziki cəhətdən də məhvə aparır. Burada niyyət, təbii ki, regional çaxnaşma yaradılmasına nail olmaq və Ermənistan üzərinə təzyiqlərin davam etməsi fonunda Vaşinqtonun regionda qalması üçün bəhanə tapmaqdır.

Çıxaracağımız nəticə budur ki, motivlərindən asılı olmayaraq, Azərbaycan növbəti strateji irəliləyişlərə nail olmaq imkanları qazanır. Qərbin Azərbaycana qarşı genişmiqyaslı aqressivlik fonunda ABŞ-Ermənistan təlimlərinin keçirilməsi Bakının qarşısındakı maneələri aşmasına əngəl yaratmayacaq.

Ancaq Azərbaycan Qərblə fikir ayrılıqlarına baxmayaraq, NATO və ABŞ ilə münasibətlərini qabağa aparmaq xəttindən də kənara çəkilməyib. Rusiya bunu qısqansa da, Bakının balansına hörmət edir. Çünki Azərbaycan tərəfdaşlıq münasibətlərini hansısa gücə qarşı əzələ nümayişi konstruksiyası kimi qurmur. Ermənistan isə NATO-nu Rusiyaya qarşı Cənubi Qafqazda cəbhə açmaq üçün regiona gətirir.

MƏTBUATIMIZ 149 YAŞINDA

Mediamız daim inkişafa can atan, özündə tarixi ənənələrə sadiqliyi və müasirliyi yaşadan dinamik strukturdur. Cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını əks etdirib, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayan mətbuatımızın bu günü ilə bağlı bu sahənin peşəkarları ilə söhbətləşdik.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Həsən bəy Zərdabi tərəfindən 1875-ci il iyulun 22-də nəşr olunan "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız 149 yaşına çatır. Bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirib, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayan mətbuatımızın bu günü ilə bağlı bu sahənin peşəkarları ilə söhbətləşdik.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirdi ki, bugünkü Azərbaycan mediası daim inkişafa can atan, özündə tarixi ənənələrə sadiqliyi və müasirliyi yaşadan dinamik, cəmiyyət həyatının müxtəlif sferalarına nüfuz etməyi bacaran mütəhərrik strukturdur: "Elə bir sahə yoxdur ki, media həmin sahə ilə bağlı ictimaiyyəti məlumatlandırmasın. Hazırda Azərbaycan mediası dünyanın Cənubi Qafqaz regionu ilə bağlı vacib informasiya mənbəyi rolunda çıxış edir. Bu da təbiidir. Çünki Azərbaycan regionun lider ölkəsidir, yaşadığımız coğrafiya ilə bağlı bütün vacib qərarlarda müstəsna rola malikdir. Bu günün Azərbaycanı o qədər güclü inkişaf edir ki, medianın da bu inkişafa adekvat reaksiya verməsi mütləqdir".

PEŞƏKARLIĞIN ARTIRILMASINA EHTİYAC VAR

Sədr vurğulayır ki, adekvatlığın qorunması üçün isə peşəkarlığın daha da artırılmasına ehtiyac duyulur: "Biz hər zaman deyirik ki, Azərbaycan mediası dünya mediasına inteqrasiya etməli, onun tərkib hissəsi olmalıdır. Nəzərə alsaq ki, dünyanın da gözü Cənubi Qafqazdadır, məsələ daha aktual səciyyə daşımaqdadır. Deməli, mediamız peşəkar standartları mənimsəməklə yanaşı, xarici dil biliklərinə də yiyələnməlidir. Burada söhbət yalnız xarici dildə xəbər yayımından getmir. Eyni zamanda, dünyanın anladığı dildə düşünmək, təhlil etmək bacarığı da önəmlidir. Məsələn, azərbaycanlı jurnalist ingilis, fransız, ərəb və sair dili bilirsə, o, həmçinin həmin dillərdə danışan auditoriyanın tələblərini, nələri əsas götürdüyünü aydın şəkildə dərk etməlidir. Bu, peşəkarlığın sərhədlərini daha geniş götürmək zərurətini doğurur".

R.Məcid jurnalistlərimizin daha təminatlı yaşamasını arzulayır: "Milli mətbuatımızın ildönümləri qazandıqlarımızı və qazanmadıqlarımızı nəzərdən keçirmək üçün fürsət verir. O cümlədən, gələcək barədə düşünmək və yeni vəzifələr müəyyənləşdirmək baxımından da. Mediamızı, jurnalistlərimizi daha peşəkar görmək hər birimizin arzusudur. Peşəkarlıq üçün isə arxayınlaşmamaq, daha əzmlə çalışmaq şərtdir. Sırf gözləntiyə gəlincə, əlbəttə, daha bir arzumuz da var ki, mediamız ölkə iqtisadiyyatının tərkib hissəsinə çevrilsin. Jurnalistlərimiz daha təminatlı yaşasınlar. Hər bir peşəkar media orqanı özünü iqtisadi cəhətdən təmin etməyi bacarsın".

"AZƏRBAYCAN MƏTBUATI KİFAYƏT QƏDƏR İNKİŞAFDADIR"

"Report" İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev hesab edir ki, bugünkü Azərbaycan mətbuatı inkişafdadır və son tendensiyaları da mediada tətbiq etməyi bacarır. Lakin bəzi problemlərimiz hələ də qalır: "Əsas problemlərdən biri sosial şəbəkələrdəki yoxlanılmamış xəbərlərin mətbuat səhifələrinə sıçramasıdır. İstənilən halda, sosial şəbəkələrdə hər hansı bir xəbər yayılarsa, bunun mütləq təsdiqi lazımdır. Təəssüf ki, oxucuların diqqətini daha tez çəkmək, oxucu sayı artırmaq üçün bəzi hallarda buna riayət edilmir. Bunun qarşısını almaq üçün mətbuatımız daha çox istinadlı xəbərlərdən, dünya təcrübəsində istifadə olunan alətlərdən istifadə etməlidir. Digər məsələlərdən biri isə yazıda, xəbərdə infoqrafikalardan istifadənin təşviqidir. Hazırda oxucular infoqrafik materiallara çox meyillənir. Həmçinin bir çox xəbər saytlarında videomaterialları müşahidə edirik. Bu da çox müsbət haldır. Çünki hazırkı dövrdə insanlar video formatlı xəbərləri xoşlayırlar".


Rəşad Məcid


Fuad Hüseynəliyev


Hacıbəy Heydərli

HANSI XƏBƏRLƏR DAHA ÇOX OXUNUR?

Mətbuatda ciddi materialların daha az maraq kəsb etdiyini vurğulayan direktor bildirir ki, hazırda dünyada da ciddi xəbərlər az oxunur: "Azərbaycan mətbuatında kifayət qədər araşdırmalar və analitik materiallar var. Təəssüf ki, bunların oxunma sayı qənaətbəxş deyil. Bu tək bizdə belə deyil. Yəni dünyanın istənilən bir yerində şou - biznes xəbərləri, yaxud hansısa cəlbedici başlıqla verilən xəbərlər daha çox oxunur, nəinki ciddi materiallar".

DÜNYA NƏHƏNGLƏRİ MİLLİ MƏTBUATIMIZA İSTİNAD EDİRLƏR

Peşəkar media mütəxəssisi vurğulayır ki, hazırda Azərbaycan mətbuatı Cənubi Qafqazda kifayət qədər keyfiyyətli kontent ortaya qoyur, bəzi sahələrdə hətta Türkiyədən də qabaqdadır: "Hazırda dünya mətbuatında da Azərbaycanın informasiya agentliklərinə, saytlarına istinadlar olunur və bu da təsdiq edir ki, biz artıq kifayət qədər tanınırıq".

MƏTBUAT ZƏRDABİNİN İSTƏDİYİ SƏVİYYƏDƏDİR

Azxeber.com saytının təsisçisi və baş redaktoru Hacıbəy Heydərli isə deyir ki, 149 yaşlı Azərbaycan mətbuatı bu gün Həsən Bəy Zərdabinin istədiyi səviyyəyə çatıb: "Azərbaycan mətbuatı geridə qalan 149 il ərzində çox keşməkeşli və şərəfli yol keçib. Təbii ki, mətbuatın problemləri də var və hər zaman dilə gətiririk. Amma son illər biz Azərbaycan mətbuatında saflaşmanın şahidi oluruq".

Həmsöhbətimiz vurğulayır ki, hazırda ənənəvi media ilə yanaşı, onlayn media cəmiyyətin nəbzini tutub: "Xüsusilə də dövlət dəstəyinin ayrılmasından sonra onlayn mediada formalaşan qeyri-sağlam rəqabət azalıb, media subyektləri oxucuya keyfiyyətli yazılar təqdim etməyə çalışırlar".

"HƏR BİR HƏMKARIMIZ FƏDAKARDIR"

Çap mediasının hazırkı durumuna gəldikdə isə, sayt rəhbəri bildirir ki, çap mediası tarixdir və öz ənənələri, özünəməxsus xüsusiyyəti var: "Çap mediasının olması bizim cəmiyyətimiz, dövlətimiz üçün önəmlidir. Amma çap mediası da çalışmalıdır ki, dünyada baş verən yeniliklər, trendlərlə ayaqlaşsın. Təbii ki, bu məsələdə ən böyük amil reklam bazarının formalaşmasıdır. Azərbaycan mətbuatında çalışan hər bir həmkarımız fədakar insandır. Biz qalib ölkənin vətəndaşlarıyıq, mətbuat da öz simasında bizim uğurlarımızı daha geniş kütlələrə çatdırmağı bacarmalıdır".



75 İLLİK YUBİLEYİNİ QEYD EDƏN XALQ ARTİSTİ, REJİSSOR MƏRAHİM FƏRZƏLİBƏYOV "KASPİ"YƏ DANIŞIB

"REJİSSOR BİLMƏLİDİR Kİ, TAMAŞAÇILARA NƏ TƏQDİM EDİR"



SÖHBƏTLƏŞDİ
Tərənə Məhərrəmova
taranamaharramova@kaspi.az

Mərahim Fərzəlibəyov: "Çox sevinirəm ki, bu gün teatrlar və kino azaddır. Şairlər, yazıçılar öz əsərlərini yazırlar, heç bir qadağa yoxdur. Amma mənə elə gəlir ki, qadağa olmayanda da gərək daxili vicdanın olsun".

Fotolar: Photostock.az/Global Media Group

Xalq artisti, "Şöhrət" ordenli teatr rejissoru Mərahim Fərzəlibəyov 75 yaşını qeyd edir. Yarım əsrə yaxın rejissorluq fəaliyyəti ilə o, Azərbaycan teatr sənətinə birbirindən maraqlı, tamaşaçıların yaddaşından silinməyən tamaşalar, müxtəlif səpkili rollar bəxş edib. Yubilyarın teatrımızın inkişafı ilə bağlı arzuları da çoxdur.

Öz dilindən oxuyaq:

"ARZUM HƏYATA KEÇMİŞDİ"

● Mərahim müəllim, 75 ilin hesabatı ciddi olar, xüsusən əgər yubilyar yaradıcı adamdırsa... Ambisiyalarınızla publika arasında balansı necə qoruya bilmisiniz?

● Rejissor, aktyor - səhnəyə çıxan insan tamaşaçılarla ünsiyyətdə olanda ilk istəyi insanların ürəyinə yol tapa bilməkdir. Əgər hər hansı bir əsər mənim xoşuma gəlir və onu götürürəmsə, ilk növbədə "tamaşaçı bu əsəri necə qəbul edəcək? Bu ideyalar ona nə qədər maraqlı olacaq?", - deyə düşünürəm. Teatr yalnız əyləncə məqsədi daşımır. Sirk, müəyyən konsertlər əylənmək və istirahət üçündürsə, teatr mürəkkəb bir sənətdir. Tamaşaçı yalnız teatra gülmək və ya kədərlənmək üçün gəlmir. "Hansı yüklə gedəcəklər? Nələri öyrənəcəklər?" - bunlar vacib nüansdır. Dramaturq da, rejissor da çalışır ki, mütləq hazırkı konfliktlərə, problemlərə tamaşaçılarla ünsiyyətə girib nəzər salsın.

● Rejissorluq fəaliyyətiniz dövründə çalışdığınız və tamaşa hazırladığınız teatrlar çoxdur. Heç şübhəsiz ki, Milli Dram Teatrı həyatınızın xüsusi səhifəsidir...

● Rejissor sənəti elədir ki, insan bunu erkən yaşlarından hiss edir və ardınca gedir. Həyat sərt üzünü göstərməsə və şansı olsa, rejissor müəyyən zirvələri fəth edə bilir. Mən rejissorluq məktəbinə Bakıda daxil olmaq istəsəm də, alınmadı. Anamın mənim rejissor olmağımda böyük dəstəyi olub. Üç bacının bir qardaşı idim. Atam təzə rəhmətə getmişdi. Anam Leninqrada (Sankt-Peterburq) gedib rejissorluq üzrə gücümü sınamağıma razılıq verdi. Çətin də olsa orada Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil oldum. Görkəmli rejissor Georgi Tovstonoqovun kursunda oxudum. Arzum qayıdıb ölkəmin ən böyük teatrında çalışmaq idi, amma müsabiqə yolu ilə daxil olduğumdan qaydaya görə, SSRİ tərkibində olan teatrlardan birinə göndərildim. Üç il Qroznı şəhərində Lermontov adına teatrda çalışdım. Bakıya qayıdandan sonra Sumqayıt Teatrından dəvət aldım və o zaman çox məşhur olan "Poladəridənlər" əsərini oxudum. Həmin vaxt Sumqayıta "metallurqlar şəhəri" deyilirdi. Əsərin mövzusu bu ada uyğun idi. Tamaşa böyük anşlaqla qarşılandı və Bakıda Akademik Dram Teatrın səhnəsində də oynanıldı. Bu tamaşadan sonra Sumqayıt Teatrına baş rejissor təyin olundum. Azərbaycanda rejissorluq həyatım bu teatrda başladı. Amma siz Milli Dram Teatrı ilə bağlı soruşursunuz. Bu teatr həyatımın əsas mərhələsini təşkil edir. Çünki bu teatrda 40 ilə yaxın çalışdım. Orada hazırladığım tamaşaların sayını artıq itirmişəm. Ancaq bilirəm ki, mənim arzum həyata keçmişdi. Sumqayıt teatrından sonra Nəriman Həsənzadənin "Nəriman" poemasını oxudum və əsəri "Bütün Şərq bilsin" adı ilə səhnələşdirdim. Bu tamaşadan sonra - 1980-ci ildə Mədəniyyət Nazirliyi məni Akademik Dram Teatrına dəvət etdi. Burada çalışdığım illərdə, demək olar ki, arzularımın çox hissəsini həyata keçirə bildim.

> *Azadlıqdan istifadə edib söyüşə, təhqirə yol vermək olmaz, küçə hadisələri kinoya, teatra gəlməməlidir.*

HƏYAT, HAVA, OKSİGEN...

● Bəs hazırda baş rejissoru olduğunuz Bakı Bələdiyyə Teatrında arzularınızı reallaşdırmağa nə qədər imkan var?

● Təəssüf ki, Akademik Teatrda direktorlar tez-tez dəyişirdi. Mən baş rejissor olan illərdə teatr təmirə bağlanmışdı. İki il belə işlədim. Təmirdən sonra eyni qayda ilə işimi davam etdirməyi düşünürdüm. Amma Mədəniyyət Nazirliyi teatrda rəhbərliyə başqa adamı gətirdi. O, ştatda olan altı rejissoru işdən kənarlaşdırdı. Nazirlik də buna səssiz yanaşdı. Onlar bir şeyi dərk etmədilər ki, rejissorsuz teatr olmaz. Mən o teatrda, demək olar ki, ildə bir əsər qoyurdum, amma müəyyən arzularımı həyata keçirə bilmirdim. O vaxt Amaliya Pənahova da müəyyən səbəblərdən teatrdan getdi və Bakı Bələdiyyə Teatrını yaratdı. Bilirsiniz ki, mən uzun illər Amaliya Pənahova ilə Akademik Dram Teatrında çalışmışam. Onunla 15-dən artıq rol işləmişdim. Bu aktrisanın sənəti, insanlığı mənə çox yaxın idi. Amaliya xanım məni öz teatrına dəvət elədi. Fikirləşdim ki, müəyyən arzularımı bu teatrda həyata keçirə bilərəm. Cümhuriyyətin 100 illiyinə həsr olunan "Şanlı vətən" əsərinə quruluş verdim. Təəssüf ki, Amaliya xanım məni rejissor kimi dəvət etdiyi tamaşaya özü baxa bilmədi, ağır xəstəlikdən dünyasını dəyişdi. Sonradan Amaliya xanımın qızı - Aynur Muxtarova teatra bədii rəhbər təyin olunandan sonra məni işə dəvət etdi. O vaxtdan baş rejissor kimi bu teatrda çalışıram. Nə yaxşı ki, bu teatr məni öz ağuşuna aldı. Artıq burada 10-cu quruluşun üzərində işləyirəm. Bu teatrda yaradıcılığımı böyük həvəslə davam etdirirəm.

● Zaman sürətlə dəyişir. Teatr necə, aktuallığını qoruya bilirmi?

● İncəsənətin çox qolları var - bəstəkarlıq, opera, balet... Amma teatr əbədidir, ölməzdir. Teatr canlı ünsiyyətdir - bu, incəsənətin möcüzəsidir. İncəsənətin heç bir sahəsində belə canlı ünsiyyət yoxdur. Simfonik orkestrdə canlı musiqiyə qulaq asırsan, amma orada səs eşidirsən. Teatrda qəhrəman sənin kimi danışır, ürəyin istəyən fikirləri deyir, arzuladığın şeyləri dilə gətirir. Teatr öz missiyasını yerinə yetirir. Mən teatrlara gedəndə salonu həmişə anşlaq görürəm. Teatr olan yerdə insanlar yaxşılığın qədrini biləcəklər. Biz özümüzü yalnız sənətin ağuşunda - teatrda, kinoda, konsertdə tapa bilərik. Bunlar həyatdır, havadır, oksigendir...

● Belə müzakirələr də olur: 20-ci əsr rejissor teatrı əsri, 21-ci əsr - menecer teatrı əsridir...

● Rejissor sənətinin 150 illik tarixi var. Rejissorluq çox böyük məfhumdur. Xüsusən rejissor sənəti teatr və kinoya çox vacibdir. Rejissor yeganə adamdır ki, özündə sözü, rəssamlığı, musiqini, işığı, müəyyən texnikanı və sair birləşdirir. O, dramaturgiyanı bildiyi qədər bu sahələri də bilməlidir. Bəstəkar da, rəssam da, səhnə ustası da onun tutduğu yolla gedir. Hər bir rejissorun dəst-xətti fərqlidir. Bəli, menecer teatrı da var, o bir qoldur. Amma rejissorsuz teatr məhv olar.

AZADLIĞIN HƏDDİ...

● Belə bir fikir də var: 70-80-ci illər mədəniyyət və incəsənət üçün qızıl dövrdür. Hətta senzura da yaradıcılıq üçün daha çox imkanlar açıb. Bununla razısınız?

● Biz iki formasiyada yaşadıq. SSRİ dövründə sənin dramaturq materialın da, özün də idarə olunurdun. Onlar tamaşanı bağlaya da, saxlaya da bilərdilər. Yadıma gəlir, Anarın "Təhminə və Zaur" əsərinə qadağa qoymuşdular. O zaman teatrın müdiri Əli İsmayılov tamaşaya o qədər vurulmuşdu ki, öz səlahiyyətlərindən istifadə edib nazirliyin qərarını ləğv etdi və tamaşanı buraxdı. Təəssüf ki, sonra onu işdən uzaqlaşdırdılar. Amaliya xanım Təhminə, Fuad Poladov Zaur rolunda oynayırdı. Tamaşanın oynandığı beş ilə yaxın müddətdə teatra düşmək mümkün deyildi. Teatrın rəngarəng repertuarı olsa da, ayda 12 dəfə bu tamaşa da oynanılırdı.

90-cı illərdən biz tamam başqa formasiyaya daxil olduq - müstəqillik qazandıq. Teatr daha da müstəqil oldu. O zaman həmçinin teatrda, kinoda axsama yarandı. Çünki yeni quruluşu qurmaq lazım idi. Bu, tədricən baş verdi. Çox sevinirəm ki, bu gün teatrlar və kino azaddır. Şairlər, yazıçılar öz əsərlərini yazırlar, heç bir qadağa yoxdur. Amma mənə elə gəlir ki, qadağa olmayanda da gərək daxili vicdanın olsun. Azadlıqdan istifadə edib söyüşə, təhqirə yol vermək olmaz, küçə hadisələri kinoya, teatra gəlməməlidir. Teatr tamaşaçıların oturduğu salondan bir metr hündürdə yerləşir. Teatr yüksək tribunadır. Biz bu tribunadan yüksək fikirlər eşitməliyik. Bu fikirləri həmçinin televiziyaya da, kinoya da şamil edirəm.

"Azadlıq" şirin sözdür, ancaq şirini acıya, zəhərə çevirmək olmaz.

● Demək istəyirsiniz ki, rejissorun azadlığının da həddi var...

● Mütləq... Hər şeyin həddi var. Heç nə sonsuz deyil... Rejissor da bilməlidir ki, tamaşaçılara nə təqdim edir. O, fikirlərini cəmiyyətlə bölməlidir. "Mən belə görürəm..." fikri olmamalıdır. Bizim milli dəyərlərimiz var. ABŞ-də səhnələşdirilən əsər burada olduğu kimi qoyula bilməz. Mənim təfəkkürüm başqadır, başqa anadan tərbiyə almışam, başqa torpaqda yaşayıram. Mənəvi dəyərlərim o qədər gözəldir ki, onları korlaya bilmərəm.





"SƏN BUNU LÜKS HAZIRLAMISAN..."

● Yubiley tədbirinizdə sizi təsirləndirən hansı hadisələr oldu?

● Bakı Bələdiyyə Teatrının rəhbərliyi mənim yubileyimin keçirilməsini istədi. Bu tədbir Muğam Teatrında dostlarımın, sənət adamlarının əhatəsində keçirildi. Teatrın haqqımda çəkdiyi 20 dəqiqəlik filmdə Ulu Öndər Heydər Əliyevlə görüşlərimin videosu nümayiş olundu. Mənim üçün böyük xoşbəxtlikdir ki, Ulu Öndər quruluş verdiyim beş tamaşaya baxıb.

Hələ "Bütün Şərq bilsin" tamaşasını Sumqayıt Teatrında qoyanda Ulu Öndər bundan xəbər tutmuş, "gətirin, mən də baxım" demişdi. Biz tamaşanı Bakıda Akademik Dram Teatrda da oynadıq. Ulu Öndər gəlib baxdı və kollektivə nə qədər gözəl sözlər dedi. O görüşdə Sumqayıt Teatrının bina məsələsi də həll oldu.

Görkəmli dramaturq İlyas Əfəndiyev o zaman "Xurşudbanu Natəvan" əsərini yazmışdı. O, məni teatra dəvət etdi və belə bir monumental əsəri mənə - cavan rejissora həvalə etdi. Bu tamaşa da böyük rezonans doğurdu. Ulu Öndər bu tamaşaya, daha sonra "Maqbet"ə baxdı. İlyas Əfəndiyevin "Hökmdar və qızı"na gəlib baxanda artıq "Bunu da sən qoymusan?", - deyə soruşmadı, "nə yaxşı ki, bunu da sən qoymusan!" dedi.

2000-ci ildə Heydər Əliyev "Dədə Qorqudun 1300 illiyi" ilə bağlı Sərəncam verdi. Anar Dədə Qorqudla bağlı pyes yazdı. O əsərin səhnələşdirilməsi mənə tapşırıldı. Əsəri Heydər Əliyev Sarayında tamaşaya qoydum. İlk dəfə türkdilli dövlətlərin başçıları Ulu Öndərlə birlikdə gəlib bu tamaşaya baxdılar. Tamaşadan sonra Heydər Əliyev "Mən əsəri oxudum, fikirləşdim ki, bu səhnədə necə gedə bilər, bunu Anara da dedim...", - deyə təəssüratını bölüşdü. Sonra mənə dönüb "Sən bunu lüks hazırlamısan", - deyə baş barmağını qaldırdı. Sonradan Ulu Öndərə yaxın olan adamlar dedilər ki, o lüks sözünü çox nadir hallarda işlədir.

● Qarşıda hansı rejissor maraqlarınız var? Klassika, ya müasir dramaturgiya?

● Əlbəttə, teatr üçün klassika məktəbdir. Mən həmişə çalışmışam ki, yaxşı əsərlər olsun. Əlbəttə, müasir əsərlərlə yanaşı, klassikanı heç vaxt unutmaq lazım deyil. Hazırda Bakı Bələdiyyə Teatrında iki əsər üzərindəm - yazıçı Məmməd Orucun "Köçürülmə" trilogiyasının və Abdulla Qədirinin "Ötən günlər" romanının səhnələşməsi üzərində işləyirəm. Sonuncu əsərlə çalışıram ki, türkdilli xalqların mənəviyyatını, etnik baxışlarını Azərbaycan tamaşaçısı yaxından tanısın.

● Arzularınız çoxdur - həm keçmişdən qalan, həm də bu gün doğulan... Onları həyata keçirmək üçün nə lazımdır?

● Allahdan arzum budur ki, mənə ömür versin. Hər şey bundan asılıdır. Rejissorun əgər nəfəsi gəlirsə və ideyaları varsa, işləyib istəklərini həyata keçirə bilər. Ömür vəfa etsə, mən də arzularımın bir qismində çata bilərəm...

BİR GÜLLƏNİN DƏYİŞDİYİ REALLIQLAR

ABŞ prezidenti postu uğrunda mübarizə aparan iki əsas namizəddən biri olan Donald Trampa qarşı sui-qəsd cəhdi Vaşinqtonda siyasi ab-havanı tamamilə dəyişib. Bir çoxları artıq iki qocanın savaşında Trampın daha şanslı olduğu qənaətindədir.



AZƏR NURİYEV

Birləşmiş Ştatlar tarixinin ən qalmaqallı və gərgin seçkilərindən birinə hazırlaşır. Budəfəki seçki kampaniyasının ən ciddi hadisəsi şübhəsiz ki, Donald Trampa atılan güllə oldu. "Trampı yaralayan, Baydeni "öldürən" güllə". Əksəriyyət tərəfindən baş verənlər məhz bu cür qiymətləndirilir. Məsələ burasındadır ki, sui-qəsd cəhdindən sonra Trampın reytinqi görünməmiş həddə çatıb. Elə bu səbəbdən də iyunun 15-də respublikaçıların qurultayında Ağ Evin keçmiş rəhbəri əsl qəhrəman kimi qarşılanıb, prezidentliyə namizəd kimi rəsmən təsdiq olunub. 13 iyul sui-qəsd cəhdindən sonra Ağ Evin keçmiş rəhbəri tədbirə sadəcə mühafizəkarların lideri kimi deyil, az qala ABŞ qəhrəmanı kimi gəlib. Sui-qəsd cəhdindən sonra onun özünü aparma tərzi ciddi rezonans doğurub. Bu hadisə prezident Bayden və onun seçki komandasının üzərinə əlavə yük qoyub. Hətta demokratların kampaniya reklamlarına da ara verilib.



Co Bayden



TRAMPA QARŞI SUİ-QƏSDDƏ İRAN İZİ?

Sui-qəsd cəhdi ilə bağlı indiyə qədər ən müxtəlif versiyalar səslənib. Buraya İran da daxil edilib. ABŞ-nin milli təhlükəsizlik üzrə rəsmiləri bildiriblər ki, Trampın müdafiəsi hadisədən bir neçə həftə əvvəl gücləndirilibmiş. Buna səbəb isə İranın onu öldürmə planının olması ilə bağlı iddiaların ortaya çıxması olub. Bununla belə, rəsmilər hələlik sui-qəsd cəhdi ilə İran arasında hər hansı əlaqəni sübut edən faktın olmadığını deyiblər. Mənbələrin bildirdiyinə görə, hələ iyun ayında İrandan mümkün təhlükənin olması ehtimalı ilə bağlı Məxfi Xidmət ciddi rejimə keçib və Trampın mühafizəsinə əks-hücum və antisnayper casusları, eləcə də dron və robot itlər cəlb edilib. Tramp və keçmiş dövlət katibi Mayk Pompeo da daxil olmaqla, bir sıra rəsmilər 2020-ci ildə İranın Qüds qüvvələrinin komandanı Qasım Süleymaninin İraqda öldürülməsindən sonra rəsmi Tehran tərəfindən təhdidlərlə üzləşiblər. İranın BMT-dəki missiyası yayılan xəbərləri "əsassız və pis niyyətli" adlandırıb. İranlı nümayəndə əlavə edib ki, Tramp "cinayətkar olub və buna görə qanun qarşısında mühakimə edilməli və cəzalandırılmalıdır".

SIRADAN HADİSƏ DEYİL

Ümumilikdə bu sui-qəsd cəhdi sıradan hadisə deyil. İlkin versiyalarda hadisənin Trampın rəqiblərinin təşkil etdiyi də bildirilir. Tramp Aİ və digər ölkələrlə inteqrasiya əleyhdarıdır. Ehtimal edilir ki, bu inteqrasiya prosesini gücləndirmək istəyənlər, onun iqtisadi siyasəti ilə razılaşmayanlar, Rusiya ilə münasibətləri normallaşdırma siyasətini bəyənməyənlər, yəni Trampın rəqibləri - Demokratlar Partiyası, bu partiyanın dəstəkçiləri sui-qəsd ssenarisini cızıblar. Çünki onlar Trampı fərqli üsullarla - barəsində cinayət işi açaraq, Floridada 11 qərargah üzvünü tutaraq, Arizonada ilkin seçkiyə buraxmayaraq seçki prosesindən uzaqlaşdırmağa çalışdılar.

Trampın milli, cinsi, irqi azlıqlar tərəfindən hücuma məruz qala biləcəyi ehtimalı da var. O, xüsusilə miqrantlara qarşı sərt siyasət yürüdüb. Ola bilsin, sui-qəsd Trampa xüsusi kin-küdurət bəsləyən bu kəsimlərdən birinin nümayəndəsi tərəfindən həyata keçirilib.

Trampın partiyadaxili müxalifətin planı ilə sui-qəsdə məruz qalması da mümkündür. Məsələ burasındadır ki, Respublikaçılar Partiyası Trampın namizədliyinin qarşısını ala bilmədi. Ancaq onu fiziki olaraq məhv etsəydilər, partiya yerinə başqa namizəd irəli sürə bilərdi. İstənilən halda, sui-qəsd cəhdi Trampın özünə xeyir versə də, ümumi anlamda ABŞ üçün müsbət heç nə vəd etmir.



Ceyms Devid Vens

VİTSE-PREZİDENTLİYƏ QALMAQALLI NAMİZƏD

Seçki prosesinə gəldikdə, respublikaçıların qurultayının ən maraqlı hadisələrindən biri Donald Trampın vitse-prezidentliyə namizədi elan etməsi oldu. O, Ohayodan olan 39 yaşlı senator Ceyms Devid Vensi bu posta irəli sürüb. Respublikaçıların vitse-prezidentliyə namizədi haqqında nə məlumdur? Ohayo ştatından olan Vens 2022-ci ilin payızında ABŞ Konqresinə əvvəlki seçkilərdə seçilib və yalnız ötən ilin yanvarında vəzifəsinin icrasına başlayıb. Avtobioqrafik kitabı ilə bütün ABŞ-də məşhurlaşan bu siyasətçi səkkiz il əvvəl Trampa rəqib olub. İndi isə respublikaçıları təmsil edir. Siyasi karyerasının əvvəlində o, Trampın əleyhinə olub. 2016-cı ildə hətta onu "axmaq" adlandırıb və Hitlerə bənzədib. Onun fikirlərini dəyişməsinə nə vadar etdiyi əslində aydın deyil - yəqin ki, Trampın prezidentliyi dövründə izlədiyi xətti bəyənib. Vens Ukrayna münaqişəsinə son qoyulmasının tərəfdarıdır. Keçən il o, prezident Co Baydeni gələcək dəstək paketlərini bloklamaqla hədələyərək Ukraynaya "məhdudiyyətsiz yardımı" dayandırmağa çağıran respublikaçı qanunvericilərdən biri idi.

TRAMPIN ADAMI NATO-NU MƏHV EDƏCƏK?

Trampın Vensi vitse-prezidentliyə namizəd kimi göstərməsi Avropada ciddi narahatlıq yaradıb. Bu barədə "Financial Times" yazır. Belə ki, bu qərar Trampın prezidentlik müddətində transatlantik təhlükəsizlik əlaqələrinin kəskin şəkildə zəifləyəcəyi, tariflərin qalxacağı və ABŞ-nin Ukraynaya mühüm dəstəyinə son qoyulacağı anlamına gəlir. "Əgər Tramp seçilərsə və Vensin üstünlük verdiyi siyasət davam edərsə, o, NATO-nun məhv olduğunu və ya ən azından ABŞ-nin alyans üzərində himayəsinin sona çatdığını elan edə bilər", - məqalədə vurğulanıb.

Beləliklə, ABŞ seçkiləri bir güllə ilə tamamilə dəyişmiş olub desək, yanılmarıq. Proseslərin gedişi ölkədə ciddi tələtüm yaratmaqla yanaşı, qütbləşməni dərinləşdirə, hətta vətəndaş müharibəsinə gətirib çıxara bilər.

TƏLƏBƏLƏRİN QAYĞILARINI AZALDACAQ KART



Tələbələr üçün vahid kart yaradılacaq. Kart ölkə üzrə bütün universitetlərin tələbələri üçün nəzərdə tutulub. Buraya əyani, qiyabi, ödənişli və ödənişsiz əsaslarla təhsil alan tələbələr daxildir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə ali təhsil müəssisələrinin rəhbər heyəti üçün universitetlərdə vahid tələbə kartının yaradılması layihəsinin təqdimatı keçirilib. Tədbirdə Elm və Təhsil Nazirliyinin tabeliyində olan, Fondla sıx əməkdaşlıq edən doqquz universitetin nümayəndəsi iştirak edib. Vahid tələbə kartı yaradılması planlaşdırılır. Bəs bu vahid tələbə kartı tələbələrə hansı imtiyazları verəcək?

DÜNYADA TƏTBİQ OLUNUR, LAKİN BİZ GERİ QALIRIQ

Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucovun sözlərinə görə, əvvəl də bu kimi layihələr olub: "Tələbələrin maddi durumları, sosial qayğıları çox olur. Hətta, onların qayğıya ehtiyacı olan həssas təbəqə olduğunu da deyə bilərik.Əvvəlki dövrlərdə də ayrı-ayrı universitetlərin, Gənclər və İdman Nazirliyinin belə təşəbbüsləri var idi. Lakin konkret addımlar atılmadı".

İ.Orucov bildirdi ki, vahid tələbə kartı dünyanın müxtəlif ölkələrində mövcuddur: "Hər bir ölkədə bu kart tələbələr üçün fərqli imkanlar yaradır. Tələbələr həmin kart vasitəsilə iaşə, ticarət müəssisələrində, kitab mağazalarında, kafe və restoranlarda endirimlər əldə edirlər. Bu kart tələbələrə nəqliyyatda da xeyli güzəştlər verir. Amma təəssüf ki, ölkəmiz bu kimi sosial layihələrdən kənarda qalır".

"REKTORLAR TƏLƏBƏ NAMİNƏ OLMALIDIR"

Sədrin fikrincə, layihənin uğurla və tez zamanda həyata keçirilməsi üçün universitetlər özləri də səy göstərməlidir: "İlkin olaraq doqquz universitetdə tətbiqi nəzərdə tutulan vahid tələbə kartının növbəti tədris ilindən istifadəyə veriləcəyini düşünürəm. Amma zaman alan texniki məqamlar da çoxdur. Universitet rəhbərlərinin bu layihəyə dəstəyi də çox önəmlidir. Rektorlar bu məsələdə aktiv iştirak etməli, tələbə naminə olmalıdırlar. Amma bəzi universitetlərdə bunu görə bilmirik".

TƏK UNİVERSİTET ÜÇÜN DEYİL, HƏM DƏ...

Müsahibimiz qeyd etdi ki, tələbə statusu olan hər kəsə bu kartların təqdim edilməsi vacibdir: "Bu kartlarının təhsil formasından asılı olmayaraq bütün tələbələrə şamil olunması mümkündür. Beynəlxalq təcrübədə bu kartlar tək universitet tələbələrinə yox, kollec, peşə məktəblərinin tələbələrinə münasibətdə də tətbiq olunur. Dünya təcrübəsini əsas götürərək deyə bilərik ki, bu kartın bütün tələbələrə şamil edilməsi məqbuldur. Əgər rəhbərliklər maraqlı olarsa, dövlət və ya özəl bütün təhsil müəssisələri bu prosesə qoşula bilər".

Onun sözlərinə görə, bütün prosesləri bir kartda cəmləmək tələbələr üçün də rahatlıq yaradacaq: "Ölkəmizdə də tələbələrə güzəştlər tətbiq olunması yaxşı olardı. Ticarət obyektlərində, muzeylərə girişdə, kitab mağazalarında tələbələr bu kartın imkanlarından istifadə edərdilər. Tələbələr üçün ictimai nəqliyyatda da güzəştlər tətbiq olunmalıdır. Vahid kartla avtobus və metrodan da istifadə etmək mümkündür. Təqaüd kartı kimi istifadə etmək də tələbələrin işini asanlaşdıracaq".



İLK OLARAQ HANSI UNİVERSİTETLƏRİN TƏLƏBƏLƏRİ YARARLANACAQ?

Təhsilin İnkişafı Fondunun İctimaiyyətlə əlaqələr üzrə aparıcı mütəxəssisi Nərgiz Qədirova isə bildirdi ki, kartın tezliklə istifadəyə verilməsi ilə bağlı hazırda tərəfdaşlar və ali təhsil müəssisələri ilə müzakirələr aparılır, texniki məsələlər üzərində işlər davam etdirilir: "Kart ölkə üzrə bütün universitetlərin tələbələri üçün nəzərdə tutulub. Buraya əyani, qiyabi, ödənişli və ödənişsiz əsaslarla təhsil alan tələbələr daxildir. Layihənin ilkin mərhələdə Elm və Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrində tətbiq olunması nəzərdə tutulur. Daha sonra isə digər dövlət və özəl universitetlər könüllü şəkildə layihəyə qoşula bilərlər".

BÜTÜN ƏMƏLİYYATLAR TƏK KARTLA HƏYATA KEÇİRİLƏCƏK

N.Qədirova kartın tələbələrə gətirəcəyi imkanlardan da bəhs etdi: "Tələbələr müvafiq beynəlxalq ödəmə texnologiyaları şirkətinin təqdim etdiyi xüsusi kəşbek, endirim, promokodlardan yararlana biləcəklər. Layihə çərçivəsində yerli və xarici şirkətlərlə müqavilə imzalanması, bununla da tələbələr üçün xüsusi güzəştlərin əldə olunması planlaşdırılır. Bu imkanlar restoran, kafe, geyim, kitab, dəftərxana ləvazimatları mağazası, tibb müəssisəsi və sair məkanlarda mövcud olacaq. Kart eyni anda bir neçə funksiyanı yerinə yetirəcək. Həm universitetə giriş-çıxışı təmin edəcək, həm debet bank kartı kimi fəaliyyət göstərəcək, həm də tələbələrin təqaüd kartı olacaq. Tələbələr bütün bank əməliyyatlarını bu kart vasitəsilə rahat şəkildə yerinə yetirə biləcəklər".

NƏQLİYYATDA DA GÜZƏŞTLƏR OLACAQ?



O ictimai nəqliyyatda tətbiq olunacaq güzəştlərlə bağlı sualımıza cavab olaraq bildirdi ki, bu barədə də işlər həyata keçirilir: "Hazırda nəqliyyatla bağlı konkret təklif və ya addım yoxdur. Amma biz artıq işlərə başlamışıq, müəyyən qurumlarla görüşlər keçirmişik. Bu istiqamətdə endirimlərin, güzəştlərin əldə olunmasına cəhd edirik. Tələbələrin əsas problemlərindən biri ictimai nəqliyyat olduğu üçün bu istiqamətdə də fond olaraq çalışırıq".

HƏM BAĞÇA, HƏM DƏ VALİDEYN QAZANIR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

BİR UŞAQ ÜÇÜN İLLİK 2500 MANAT ÖDƏNİLƏCƏK

Rasif Dünyamalıyev: "Regionlarda özəl uşaq bağçaları fəaliyyət göstərməkdə maraqlı deyillər. Çünki gəlirlilik aşağıdır. Amma bu tətbiqdən sonra artıq özəl bağçalar regionlarda da açılacaq. Çünki xərcin böyük bir hissəsini dövlət qarşılayacaq".



Dövlət bağçalarında yer tapmayan valideynlərin uşaqları özəl bağçalara göndəriləcək. Belə ki, Elm və Təhsil Nazirliyi özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi elan edib. Müsabiqə ilə dövlət məktəbəqədər təhsil müəssisələrinə qəbul oluna bilməyən uşaqlar özəl məktəbəqədər təhsil müəssisələrində boş qalan yerlərə cəlb ediləcək və təhsil haqqının bir hissəsi qrant vasitəsilə maliyyələşdiriləcək. Qrant müsabiqəsinin məqsədi, şərtləri, faydaları, ümumiyyətlə, valideynləri maraqlandıran suallarla bağlı Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Rasif Dünyamalıyevlə söhbətləşdik.

"BU MÜSABİQƏ HƏDƏFİ DAHA DA ƏLÇATAN EDİR"

● Rasif müəllim, məktəbəqədər təhsilin bir uşağın inkişafındakı rolu nədən ibarətdir və bu müsabiqə bu inkişafa necə dəstək ola bilər?

●Məktəbəqədər təhsilin uşağın inkişafındakı rolu danılmazdır. Təsəvvür edin, 1-6 yaşda olan uşaqların inkişafındakı dəyişikliklər sonrakı heç bir yaş dönəmində baş vermir və təkrarlanmır. Məhz bu yaş dönəmində uşağın zehninin 60 faizi inkişafını tamamlayır, sonrakı həyatında lazım olacaq 80 faiz bacarıqlar formalaşır. Azərbaycanda hazırda məktəbəqədər təhsillə bağlı bir çox layihələr həyata keçirilir. Burada ənənəvi uşaq bağçası modeli ilə yanaşı, alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili, "icma əsaslı məktəbəqədər təhsil modeli" kimi layihələri misal göstərmək olar. Həmin layihələrdə bir çox alternativ modellərin tətbiqini nəzərdə tutuldu. Məsələn, onlardan biri öyrədici qutu ilə bağlı idi ki, nazirlik tərəfindən evlərə, valideynlərə öyrədici qutular göndərilir, həmin qutularda olan vəsaitlə valideynlər öz uşaqları ilə fərdi şəkildə məşğul olurlar. Bu cür innovativ layihələr var, amma bunlar ümumilikdə məktəbəqədər təhsilə cəlb olunan uşaq sayını nə qədər artıra bilib? Bugünkü statistikaya nəzər salanda görürük ki, məktəbəqədər təhsilə cəlb olunan uşaqların sayı 30-35 faiz aralığında dəyişir. Lakin "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda məktəbəqədər təhsilə cəlb olunmuş uşaqların 1-5 yaşlılara nisbətinin 50 faizə çatdırılması nəzərdə tutulub. Bu, çox çətin hədəfdir, amma mümkündür. Hazırkı qrant müsabiqəsi bu hədəfi daha da əlçatan edir. Dövlətin maddi imkanları nə qədər çox olsa da, bu imkanlar çərçivəsində üç il ərzində yeni bağçaların tikilməsi real deyil. Ona görə də müsabiqə özəl sektorun, müxtəlif investorların bu işə cəlb olunması prosesini daha da sürətləndirəcək və özəl bağçaların sayının artmasına səbəb olacaq.

> *Burada bir məqam var ki, dövlət yalnız 10 aya 2500 manatı ödəməyi öhdəsinə götürür, digər hissəni valideyn öz hesabına ödəməlidir.*



Rasif Dünyamalıyev

● Hazırda bu layihədə neçə uşağın iştirakı nəzərdə tutulub?

●Qrant müsabiqəsi 2024-2025-ci illəri əhatə edir və ilkin olaraq 1500 uşağın iştirakı nəzərdə tutulur. Əlbəttə ki, hələ birinci ildir tətbiq olunacaq və pilot layihə kimi nəzərdə tutulub. Qrant müsabiqəsinin nəticələrinə əsasən, layihənin əhatə dairəsi genişləndiriləcək.

●Bəs müsabiqənin şərtləri nədən ibarətdir?

●Burada önəmli məqam özəl uşaq bağçasının lisenziyasının olması, yaxud mütləq şəkildə lisenziya üçün müraciət etməsidir. İkinci məqam isə təhsil haqqı ilə bağlıdır. Qrant müsabiqəsində ümumilikdə uşaqları aylıq 500 manata qədər olan özəl uşaq bağçalarına yönləndirmək nəzərdə tutulur. Bu məbləğ bir uşaq üçün aylıq 250 manat, yəni illik 2500 manat məbləğində planlaşdırılır. Bu, 10 ayı əhatə edir. Həmçinin özəl uşaq bağçalarına şərt də qoyulub ki, ümumi uşaq tutumunun ən azı 20 faizini qrant müsabiqəsinə boş yer kimi təqdim etsin və təhsil haqqı aylıq 500 manatı keçməsin. Özəl bağçalar bu şərtlərlə proqramda iştirak edə bilərlər. Valideynlərin müraciəti isə çox asandır. Dövlət uşaq bağçalarına iki ildir ki, onlayn formada qeydiyyat aparılır. Bu qrant müsabiqəsində iştirak edən özəl bağçalara da müraciət məhz həmin veb-səhifə (https://www.bq.edu.az/) üzərindən həyata keçiriləcək. Yəni valideynlər eyni formada özəl bağçalara müraciət edə biləcəklər. Dövlət məktəbəqədər təhsil müəssisələrinə qəbul bitdikdən sonra gözləmə siyahısında olan uşaqların özəl məktəbəqədər təhsil müəssisələrinə qeydiyyatı açılır. Burada bir məqam var ki, dövlət yalnız 10 aya 2500 manatı ödəməyi öhdəsinə götürür, digər hissəni valideyn öz hesabına ödəməlidir. Buna görə də valideynlər seçim edərkən diqqətli olmalıdırlar. Özəl uşaq bağçasını seçdikləri zaman onun təhsil haqqını və nə qədərini ödəyəcəyini nəzərə almalıdırlar.

● Özəl uşaq bağçalarının bu müsabiqəyə münasibəti necədir? Onlar iştirak etməkdə nə dərəcədə maraqlıdırlar?


● Özəl uşaq bağçalarının bu layihə ilə bağlı mövqeyi çox müsbətdir. Çünki qrant müsabiqəsi həmçinin özəl bağçalara da dəstək olacaq. Çünki hər kəs onların müəyyən etdiyi təhsil haqqını ödəyə bilmir və bu da uşaqlarının sayının az olmasına səbəb olur. Ona görə də özəl bağçalar ya qiyməti aşağı salırlar, bu da keyfiyyətin azalmasına səbəb olur, ya da qanunsuz (qara mühasibatlıq) işləyirlər. Dövlətin bu dəstəyi onların fəaliyyətinə, şəffaflaşmasına və keyfiyyətinin yüksəlməsinə də kömək edəcək. Burada bir məqam da var ki, regionlarda özəl uşaq bağçaları fəaliyyət göstərməkdə maraqlı deyillər. Çünki gəlirlilik aşağıdır. Amma bu tətbiqdən sonra artıq özəl bağçalar regionlarda da açılacaq. Çünki xərcin böyük bir hissəsini dövlət qarşılayacaq. Regionlarda icarə haqları və işçi qüvvəsi üçün maaş mərkəzə baxdıqda aşağıdır. Bu da təhsil haqqının daha az hesablanmasına imkan yaradır.

İSTİFADƏÇİLƏRİ DƏ ARTIR, İSTEHSALI DA

Siqaret istehsalında artım müşahidə edilir. Ekspertlər bunu həm əhalinin, həm də siqaretdən istifadə edənlərin sayının artması ilə əlaqələndirirlər. Bu problemin qarşısını almaq üçün inzibati tədbirlərin sərtləşdirilməsi də təklif edilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Bu ilin ilk beş ayında Azərbaycanda altı milyard 342,6 milyon ədəd siqaret və siqar istehsal olunub. Bu barədə Dövlət Statistika Komitəsi xəbər verir. Bu, illik müqayisə ilə 533,6 milyon ədəd və ya 9,2 faiz çoxdur. Həmçinin hazır məhsul ehtiyatı son bir il ərzində 184,6 milyon ədəd və ya 27 faiz artaraq mayın birinə 857,5 milyon ədəd təşkil edib. Bəs görəsən siqaretin zərərləri ilə bağlı davamlı şəkildə aparılan maarifləndirmə, satışının azalması ilə bağlı görülən müxtəlif tədbirlər fonunda ölkədə siqaret istehsalının artım səbəbləri hansılardır?

"SAY GƏNCLƏRİN HESABINA ARTIR"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyevin sözlərinə görə, həm əhalimizin, həm də siqaret çəkənlərin sayında artım mövcuddur: "Say, əsasən də, gənclərin hesabına artır. Həmçinin əhali sayında da artım mövcuddur. Siqaretə qarşı mübarizə dünyanın bütün ölkələrində aparılır. Amma istehsal da, çəkənlərin sayı da azalmır. Əksinə, statistika artmaqda davam edir".

R.Quliyevin fikrincə, siqaretin qiyməti nə qədər qalxsa da, bu, siqaret çəkənlərin sayına təsir etməyəcək: "Azərbaycanda bir neçə siqaret fabriki var. Hansı ki, xarici brendləri orada istehsal edirlər. Dövlətimiz istənilən formada - qiymət artımı, məhdudlaşdırma tədbirləri ilə siqaret istifadəsinin kəmiyyətini azaltmağa çalışır. Siqaretə yüngül narkotik də deyirlər. İndi qutusu 3-4 manatdır, amma 10 manat da olsa, insanlar yenə də alıb çəkəcəklər. Yaxud ən ucuz və keyfiyyətsiz siqaretdən istifadə edəcəklər. Düşünürəm ki, təbliğat və təşviqat daha güclü olmalıdır. Siqaretin ziyanları barədə sosial videoçarxlar yayımlanmalıdır. Həmin çarxları bütün kanallarda aktiv saatlarda nümayiş etdirmək lazımdır".

"XAMMALIN İSTEHSALINA DA İMKAN YARADILMALIDIR"

İqtisadçı Eyyub Kərimli isə bildirdi ki, istehsal nə qədər artsa da, yenə idxaldan asılıyıq: "İstehsalın artması tütün idxalına da təsir göstərir. Ölkəmizdə daha çox xammal birləşdirilir və adı istehsal olur. Bu, ölkədən valyuta axınına da təsir göstərir. Əgər istehsal artırsa, xammalın istehsalına da imkanlar yaradılmalıdır. Amma bu, çox çətin və əziyyətli sahədir. Tütün istehsalı ümumi siqaret istehsalının cəmi beş faizini təşkil edir".



"SİQARETİ DAHA DA BAHALAŞDIRMALIYIQ"

E.Kərimli qeyd etdi ki, əsasən maarifləndirməyə və qadağaları sərtləşdirməyə ehtiyac var: "Artıq gənclər və xanımlar arasında da bu vərdişə qurşananlar az deyil. Dövlət tərəfindən hər altı aydan bir siqaretə tətbiq edilən aksizlərin dəyəri qaldırılır ki, bu da qiymət artımına səbəb olur. Lakin dünyada qiymət nə qədər artsa da, bu, istifadəçilərin sayına təsir etmir. Siqaret daha da baha olmalıdır. Siqaretlə mübarizə üçün maarifləndirmə işlərinin gücləndirilməsi, gənclərin daha çox idmana, sağlam həyat tərzinə cəlb edilməsinə çalışmaq lazımdır. Siqaretin tək-tək satılmasının da qarşısı alınmalıdır. Bunu əsasən köşklərdə, universitetlərin yanında müşahidə edirik. Siqaret satışı ilə bağlı qoyulan yaş həddi bir az da yuxarı qaldırılmalıdır. Siqaretlə bağlı müəyyən qadağalar tətbiq olunub. Bunlardan biri ictimai yerlərdə olan qadağalardır. Amma çox zaman buna riayət olunmur".

"ASILILIQ YARADAN MADDƏLƏR DƏ QATIRLAR"

Sosioloq Üzeyir Şəfiyev isə düşünür ki, istehsal bazarın tələbidir və bununla mübarizə mümkünsüzdür: "İstehsal tələb və təklif qanunlarından asılıdır. Tələbat olmazsa, məhsul da istehsal olunmaz. Deməli, istifadəçilərin sayı çoxdur. İstehsalçılar da bazarı fikirləşirlər. Hətta bəzən siqaretin tərkibinə asılılıq yaradan maddələr də qatırlar. Hansı ki, asılılıq yaradır və daha pis vərdişlərə sövq edir. Bu, intihara bərabərdir. İstehsala fokuslanmaqdansa, tələbi azaltmaq üzərində işləməliyik. İstehsal azalsa da, insanlar onu yenə də başqa yollarla tapacaqlar".

Ü.Şəfiyev siqaretin hansı yollarla yayılmasından da danışdı: "Siqaret çəkən qadınların sayının artımı ən böyük təhlükədir. Çünki bu, doğulacaq körpələrin sağlamlığı üçün də təhlükə deməkdir. Gələcək nəsillər təhlükə altındadır. Bu cür pis vərdişlər gənc insanları daha tez ağuşuna alır. Siqaret, əsasən, təsir altına düşməklə yayılır. Uşaqlar bir-birinə təklif edir, bəzən hətta məcbur edilir".

HƏM MAARİFLƏNDİRMƏ, HƏM AİLƏ TƏRBİYƏSİ

Sosioloqun sözlərinə görə, valideynlər, təhsil müəssisələri və sosial institutlar bu problemə qarşı birlikdə mübarizə aparmalıdırlar: "Valideynlərin yeniyetmələr və gənclər üzərində nəzarəti daha da güclü olmalıdır ki, övladlarını bu təsirlərdən qoruya bilsinlər. Uşaqları təsir altına düşməkdən qorumaq üçün məktəblərdə məktəblinin dostları, psixoloqlar işlər aparmalıdırlar. Burada həm maarifləndirmə, həm də ailə tərbiyəsi olduqca vacibdir. Valideynin və məktəbin uşağa düzgün nəzarəti olmalıdır. Uşaqların dost, yoldaş seçiminə yumşaq şəkildə müdaxilələr etmək lazımdır".





“Azəriqaz” Zəngilanda qaztənzimləyici məntəqə qurur

İşğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndi ərazisində Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyi tərəfindən qaztənzimləyici məntəqə (QTM) qurulur. Bu barədə “Report”a “Azəriqaz”dan məlumat verilib. Bildirilib ki, işlər müntəzəm olaraq davam etdirilir. QTM Zəngilan rayonun Həkəri, Yenikənd və 2-ci Alıbəyli kəndlərini “mavi yanacaq”la təmin edəcək. QTM-in ərazisi 2500 kv metr olacaq. Hazırda ərazidə iki su anbarının tikintisi başa çatmaq üzrədir. İşıq dirəklərinin bünövrəsi hazır vəziyyətdədir. Cari işlərin avqustun sonunadək yekunlaşdırılması planlaşdırılır.

AZAD EDİLƏN RAYONLARIN XƏRİTƏLƏRİ HAZIRLANIB



Ağdərə rayonunun yenidən yaradılması ilə əlaqədar işlər yekunlaşdırılıb. Kəlbəcər rayonu üzrə 23 yaşayış məntəqəsinin, Ağdam rayonu üzrə 10 yaşayış məntəqəsinin və Tərtər rayonu üzrə 26 yaşayış məntəqəsinin inzibati sərhədləri kameral şəraitdə müəyyənləşdirilib.

Ağdam şəhərində işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə işçi qrupunun növbəti iclası keçirilib. “Report” xəbər verir ki, iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının, Ağdam, Füzuli və Xocavənd rayonlarında, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında, Şuşa, Laçın, Kəlbəcər rayonlarında, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə Xidmətlərinin nümayəndələri iştirak ediblər.

BİR MİLYON HEKTARDA ÖLÇMƏ İŞLƏRİ YEKUNLAŞIB

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin Kadastr və Yerquruluşu Layihələndirmə Tədqiqat Mərkəzinin baş mühəndisi Çingiz Tanrıverdiyev bildirib ki, işğaldan azad olunmuş ərazilərdə 2022-2024-cü illər ərzində Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Xocavənd, Xocalı və Ağdərə rayonlarında ümumilikdə 1 001 779,10 hektar ərazidə yerquruluşu üzrə çöl ölçmə işləri yekunlaşıb. Onun sözlərinə görə, hazırda Xocavənd və Ağdərə rayonlarında çöl ölçmə işləri davam etdirilir: “Bu günə kimi 764 421,25 hektar (Zəngilan rayonu üzrə 70 860.27 ha, Qubadlı rayonu üzrə 79 875.7 ha, Kəlbəcər rayonu üzrə 195 406.3 ha, Cəbrayıl rayonu üzrə 104 936,53 ha, Laçın rayonu üzrə 183 107,44, Ağdam rayonu üzrə 73 281.35 ha və Füzuli rayonu üzrə 56 953.66) ərazinin elektron kadastr uçot məlumatları Torpaqların Elektron Kadastrı Uçotu İnformasiya Sisteminə (TEKUIS) miqrasiya edilərək bu rayonlar üzrə yerquruluşu işləri başa çatdırılıb. Hazırda kameral şəraitdə emal işləri yekunlaşmış Xocalı rayonu üzrə kadastr məlumatları TEKUIS-ə miqrasiya edilməsi üçün hazırlanır”.

XOCALI, XOCAVƏND VƏ ŞUŞA...

Ç.Tanrıverdiyevin sözlərinə görə, bərpa edilən Ağdərə rayonunun sərhədlərində hazırda mərz nişanları basdırılır. “Naturada sərhədlər Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinə və qonşu həmsərhəd rayonların nümayəndələrinə tanıdılır”, - deyə o qeyd edib.

Ağdərə rayonunun yenidən yaradılması ilə əlaqədar Kəlbəcər rayonu üzrə 23 yaşayış məntəqəsinin, Ağdam rayonu üzrə 10 yaşayış məntəqəsinin və Tərtər rayonu üzrə 26 yaşayış məntəqəsinin inzibati sərhədləri kameral şəraitdə arxiv və ortofoto (PUA-dan çəkilən fotolar) məlumatları əsasında müəyyənləşdirilib. Həmin sərhədlərə əsasən, Ağdərə rayonunun yaradılması ilə bağlı xəritələr hazırlanıb Prezident Administrasiyasına təqdim edilib: “Xocalı, Xocavənd və Şuşa rayonları üzrə xəritələr də hazırlanaraq Prezident Administrasiyasına təqdim edilib”.

“AZERCONNECT” “THE GREAT INNOVATiON” TƏDBİRİNDƏ

“Azerconnect Group” Böyük Britaniyanın Azərbaycandakı Ticarət Palatasının (BCCA) təşkilatçılığı ilə keçirilən “The Great Innovation” adlı xüsusi görüşdə iştirak edib.

Dövlət və özəl təşkilatlardan 100-dən çox nümayəndənin qatıldığı tədbirdə “Azerconnect Group” tərəfindən innovasiya və rəqəmsallaşma sahələrində həyata keçirilən uğurlu layihələr və əldə olunan nailiyyətlər barədə ətraflı məlumat təqdim edilib.

“Azerconnect Group”un baş direktorunun müavini Dövlət Dövlətov tədbirdə şirkətin ən son beynəlxalq təcrübə və standartlara uyğun təhlükəsiz əməliyyatlar mərkəzi, maliyyə xidmətləri (FinTech) sahəsində innovativ ödəmə sistemləri, istehlakçılara fərdiləşdişdirilmiş kontent təqdim etməyə imkan verən təkmil hədəfləmə alqoritmləri (AdTech) və digər qabaqcıl layihələr barədə danışıb. Cari ildə “Azerconnect Group” və dünyanın aparıcı telekommunikasiya şirkəti “Vodafone Group” arasında strateji tərəfdaşlıq müqaviləsinin imzalandığı vurğulanıb. Bildirilib ki, bu əməkdaşlıq ölkənin İKT sektorunun inkişafına töhfə verəcək, bu sahəyə qlobal təcrübə, o cümlədən innovasiya və yeni həll yolları gətirəcək.

Bundan əlavə, qeyd olunub ki, hazırda Avropa ilə Asiyanı Azərbaycan vasitəsilə birləşdirən “Rəqəmsal İpək Yolu” (Digital Silk Way) layihəsi həyata keçirilir. Bu layihə ölkəmizin rəqəmsallaşmasında, Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsində əhəmiyyətli rol oynayacaq.

Qeyd edək ki, “The Great Innovation” adlı görüşün keçirilməsində məqsəd innovasiya, rəqəmsallaşma və telekommunikasiya sahələrində fəaliyyət göstərən dövlət və özəl təşkilatların nümayəndələrini, ekspertləri bir araya gətirmək, bu sahədə mövcud vəziyyəti və yenilikləri müzakirə etmək olub.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1616
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

RAMİZİN HƏR YERDƏ İZİ QALIR



Tanınmış aktyor və rejissor Ramiz Əzizbəylinin adı gələndə insanlar istər-istəməz pozitivə köklənirlər. 20 iyul - doğum günü ərəfəsində sənət yoldaşları tanınmış həmkarlarını böyük hörmət və sevgi ilə anırlar.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Ramiz Əzizbəyli şair ruhlu adam idi. O, həm şeir-qəzəl yazırdı, həm gözəl mahnı ifa edirdi, həm də istedadlı aktyor və rejissor idi. Teatr və kino aləmində çox keyfiyyətə malik olmaq hər sənət adamına nəsib olmur. O, enerji ilə dolu bir insan idi". Xalq artisti Ramiz Əzizbəyli haqqında deyilən bu fikirlər tanınmış aktyor və rejissorun təkcə insan kimi xarakterini deyil, həmçinin sənətinə xas xüsusiyyətləri də açır...

TAMAŞAÇI RƏĞBƏTİ

Ölümündən bir neçə il əvvəl R.Əzizbəyli redaksiyamızda qonaq olarkən keçən illəri vərəqlədi, xatirələrini danışdı. "Aktyor və rejissor kimi taleyimdən razıyam" dedi. "Bəxt üzüyü" filminin təqdimatını görərdiniz. Filmin ilk nümayişi Heydər Əliyev Sarayında oldu. Camaat içəri daxil olmaq üçün sarayın şüşələrini sındırmışdı. O gün heç yadımdan çıxmır...", - deyə filmin premyerasını xatırlayıb kövrəldi...

Ramiz Əzizbəylinin 1992-ci ildə çəkdiyi "Bəxt üzüyü" bədii filmi müasir kino tariximizə ən yüksək kassa gəliri gətirən film kimi daxil olub. Ekran əsəri Daşkənddə keçirilən Asiya və Latın Amerikası ölkələrinin ənənəvi kinofestivalında xüsusi diploma layiq görülüb. 1993-cü ildə Bakıda Azərbaycan filmlərinin II festival müsabiqəsində filmin rejissoru kimi Ramiz Əzizbəyliyə "Tamaşaçı rəğbəti" mükafatı təqdim olunub.

"MƏNİ "MOŞU" KİMİ TANITDI"

20 iyul - doğum günü ərəfəsində sənət yoldaşları Ramiz Əzizbəylini böyük hörmət və sevgi ilə anırlar.

Xalq artisti Valeh Kərimov məşhurlaşmasına və sevilməsinə görə məhz Ramiz Əzizbəyliyə minnətdarlıq edir: "Mən teatr aktyoruyam. Teatrda bu roldan da güclü rollarım olub. Amma o rollar ekranda görünmədiyindən yadda qalmayıb. Amma bu film məni kinoaktyor kimi tanıtdı. Film tez-tez televiziyada nümayiş olunur, camaatın da yadında qalır". V.Kərimov deyir ki, filmdə bağ yeri Şüvəlanda, bazar Mərdəkanda, dəniz səhnələri Bilgəhdə çəkilib: "Sponsorun şərtinə görə film iki ay ərzində çəkildi. İyul-avqust ayları idi. O müddətdə yerli sakinlərlə dostlaşmışdıq. Bu film həyatımda böyük rol oynadı. Hamı məni "Moşu" kimi tanıdı və sevdi. İndi də məni bu rolla tanıyırlar. Sonra Ramiz məni iki dəfə "Mozalan"da çəkdi. O, yeni aktyorlarla işləməyi xoşlayırdı. Onunla işlədiyim illərdə aramızda heç vaxt artıq söz-söhbət olmadı. Fikirlərimizə hörmət edir, bir-birimizi yaxşı başa düşürdük". V.Kərimov deyir ki, Ramiz Əzizbəylinin səmimiliyi onu çoxlarına dost etmişdi: "Ramiz çox adamın dostu idi. O, hərtərəfli insan idi. Şair, rəssam, qəzəlxan, rejissor, aktyor kimi qabiliyyətləri vardı".

ONUN QARŞISINDAKI ŞLAQBAUM

"Ramiz Əzizbəylini yaxından tanımamışdan əvvəl onun AzTV-də Buratino rolunu görmüşəm", - deyə "Bəxt üzüyü" filmində Sara rolunun ifaçısı, Əməkdar artist Gülşad Baxşıyeva xatırlayır: "İllər keçdikcə dublyajda səsləndirmələrini eşitmişəm. Sonra tale elə gətirdi ki, özüm də incəsənət aləmində oldum və Ramiz müəllimlə yaxından tanışlıq yarandı. O, həyat yoldaşımla yaxın dost idi. Dram dərnəyi yaratmışdılar, biri aktyor, biri rejissor kimi birgə işləyirdilər. Sonra məni özünün çəkdiyi "Bəxt üzüyü" və "Yalan" filmlərinə dəvət etdi. Həyatımda problemlər olanda da onun kişi kimi mövqeyini gördüm". G.Baxşıyeva deyir ki, Ramiz Əzizbəyli şair ruhlu adam olub: "O, həm şeir-qəzəl yazır, həm gözəl mahnı ifa edirdi, dublyajın ustası idi. Ramiz istedadlı aktyor və rejissor idi. Musiqili Komediya Teatrında onun "Məşədi İbadı"nı da gördüm. Sənət aləmində çox keyfiyyətlərə malik olmaq hər adama məxsus olmur. O, enerji ilə dolu insan idi. Ramiz hələ çox işlər görə bilərdi. Amma bir çox aktyorlarımız kimi onun da qarşısında şlaqbaum vardı..."

"SƏN BİLİRSƏN, NƏ OYNAMISAN?"

"Nə qədər kino, teatr var, nə qədər aktyor seçimləri keçiriləcək, yeni filmlər çəkiləcək - Ramiz Əzizbəyli həmişə yaddaşımda olacaq", - deyə Əməkdar artist Ayşad Məmmədov xatırlayır: "Ramizlə ilk işim "Bəxt üzüyü" filmində oldu. Filmdə çəkilməyi çoxları istəyirdi, amma o, sonunda məni seçdi. İkinci işimiz "Yalan" filmində oldu. Gənclər Teatrında "Səni sevirəm, Türkiyə" tamaşasında da tərəf-müqabil idik". A.Məmmədov "Bəxt üzüyü"ndən bir epizodu xatırlayır: "Ramiz mənim kinoda ilk rejissorum olub. "Bəxt üzüyü"ndə monoloqlar var. Sonuncu monoloqu mənimlə uzun müddət hazırladı. Çəkiliş günü məni darvazanın arxasına çağırdı və xeyli məsləhət verdi. Məzmunlu bir kadr alındı. Onun verdiyi məsləhətlər mənə həmişə gərəkli olacaq. Ramiz xəstə yatanda tez-tez ona baş çəkirdim. Filmdəki çəkilişləri xatırlayırdıq. Bir gün "sən bilirsən, "Bəxt üzüyü"ndə nə oynamısan? Sən Məcnunu oynamısan?", - dedi. Mənim tanınmağımda o film həqiqətən böyük rol oynadı".

RAMİZİN HƏR YERDƏ İZİ QALIR...

Xalq artisti Ənvər Həsənov Ramiz Əzizbəyli ilə kinostudiyada birlikdə çalışdığını deyir: "Ramizlə 3-4 filmdə çəkilmişik. Ezamiyyətlərə bir getmişik, dostluq etmişik. "Dərviş Parisi partladır" filmində o, nökər rolunda oynayırdı. Diplom işində də yanında olmuşam. Şamaxıda Dəmirçi kəndində çəkirdik. İndi artıq kinostudiya da işləmir. Amma Ramizin hər yerdə izi qalır. Bu cür sənətkarların yanımızda olmaması bizim üçün çox ağırdır..."

Əməkdar artist Suğra Bağırzadə "Ramizlə uşaqlıqdan dost olmuşam", - deyə xatırlayır: "Çox yaxşı münasibətimiz vardı. Kinostudiyada birgə çalışır, bir-birimizin işlərindən xəbərdar olurduq. Məktəbli olanda dublyajda, televiziya verilişlərində, radio tamaşalarında birgə işləmişik. Həmçinin "Alma almaya bənzər" filmində birgə çəkilmişik. Düzdür, onları Qubaya çəkilişlərə aparırdılar. Mən isə işlərimlə əlaqədar gedə bilmir, kinostudiyanın pavilyonunda çəkilirdim. Ona görə də çəkiliş meydançasında qarşılaşmırdıq. Mən kinostudiyada bir mühəndis kimi işləməyə başlayanda, Ramiz də rejissor və aktyor kimi çalışırdı. Çox diqqətli insan idi. Ondan həmişə özümə qarşı qayğıkeşlik və mehribanlıq görmüşdüm".



Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
20 İYUL ŞƏNBƏ 2024 www.kaspi.az

SİSTEM ADAMI

İspaniya millisi Avropa çempionatları tarixinə bütün oyunlarda qalib gəlib çempion olan ilk yığma kimi düşdü. "Qırmızılar"ın uğurundan danışılarkən daha çox baş məşqçi Luis de la Fuentenin adı çəkilir.



AVRO-2024 yaddaşlara son illərin ümumi tendensiyasından fərqli olaraq baxımlı futbolun qələbəsi kimi düşəcək. İspaniya millisi bütün əsas favoritlərə meydan oxuyaraq tarixində dördüncü dəfə "köhnə qitə"nin ən güclüsü adını qazandı. "Qırmızılar"ın uğurundan danışılarkən daha çox "sistem komandası" ifadəsi işlədilir. Bu da onunla bağlıdır ki, baş məşqçi Luis de la Fuentenin əlində ənənəvi İspaniyadan fərqli olaraq, çoxlu super-ulduzlar yox idi. O, bunu gənclər və hətta ortabab oyunçularla əldə etdi.

İKİNCİ DƏRƏCƏLİ FAVORİT

Avropa çempionatının bizə göstərdiyi əsas iki məqamı vurğulamaq olar. Bunlardan biri böyük turnirlərdə uğur qazanmaq üçün praqmatik futbol oynamaq məcburiliyinin olmamasıdır. Son Avropa və dünya çempionatlarında daha çox müdafiəsinin etibarlılığı ilə seçilən kollektivlər nəticə əldə edə bilirdilər. İkinci məqam meydanda adların və ya futbolçuların dəyərlərinin rol oynamamasıdır. Əks halda, bu yazı İspaniyaya deyil, İngiltərə və ya Fransaya həsr olunmalı idi. Ulduz oyunçular toplusu olan adıçəkilən komandalar demək olar ki, heç bir oyunda əsas favorit adının çəkisini ortaya qoya bilmədilər. Əvəzində bu turnirdə Avstriya, İsveçrə, Slovakiya, Sloveniya kimi daha cəsarətli oynayan kollektivlər ön plana çıxdılar. Və təbii ki, İspaniya. Mütəxəssislər ispanları ən yaxşı halda ikinci dərəcəli favorit kimi dəyərləndirirdilər. Hətta "qırmızılar"ın "ölüm qrupu"nda işinin çətin olacağı gözlənilirdi. Xorvatiyaya qarşı açılış oyununda qazanılan 3:0 hesablı qələbəyə baxmayaraq, komandanın topa sahib olma göstəricisində rəqibdən geri qalması ispanlar üçün ənənəvi deyildi və komandanın gələcək potensialına şübhələr yaradırdı. Lakin sonradan məlum oldu ki, De La Fuente məhz resurslara uyğun tərz seçib və bu, ən doğru addımdır.

"ÖLÜM QRUPU"NDAN "ÖLÜM YOLU"NA

Qrup mərhələsində İtaliya üzərindəki qələbə komandanı lider etdi. Lakin İspaniya "ölüm qrupu"ndan çıxıb sanki "ölüm yolu"na düşdü. Komandanı finala qədər çox ağır rəqiblər gözləyirdi. Əvvəlcə Gürcüstan üzərində asan qələbə qazanıldı. ¼ finalda rəqib baxımlı futbol göstərən Almaniya idi. Ev sahibi ilə dramatik qarşılaşmada əlavə vaxtda qalib gəlmək mümkün oldu. Son dünya çempionatının finalçısı Fransanı da daha yaxşı oyunla üstələyən "qırmızılar" finalda turnirdən öncə çempionluğa əsas namizəd hesab olunan İngiltərəyə rəqib oldu. Burada da ispanlar oyun baxımından daha üstün idilər və layiqli qələbə qazandılar. İspaniya millisi Avropa çempionatları tarixinə bütün oyunlarda qalib gəlib çempion olan ilk yığma kimi düşdü.

ƏN DOĞRU QƏRAR

Heyəti heç də ən nəhəng görünməyən İspaniyanın uğurunda baş məşqçinin işi qabardılmağa layiqdir. Luis de la Fuente əlindəki resurslardan maksimum yararlanmağı bacardı. Hətta ortaya çıxan gözlənilməz problemdən belə maksimum istifadə edildi. Almaniya ilə qarşılaşmada Pedrinin zədələnməsi bəlkə də oyunun gedişində azarkeşlərin növbəti mərhələ ümidlərini azaltmışdı. Amma La Fuente böhran anında ən doğru qərarı verdi. Pedrini Dani Olmo əvəzlədi ki, o da qol və qol ötürməsilə qələbənin memarlarından oldu. De la Fuentenin məşqçilik karyerasına nəzər yetirdikdə onun daha çox gənclərlə işlədiyi müşahidə olunur. Mütəxəssis "Sevilya" və "Atletik"in gənc komandalarında fəaliyyət göstərib. Daha sonra Bilbao klubunun əsas komandasında çalışıb. Ardınca o, İspaniya yığma komandaları sisteminə daxil olub. Burada pillə-pillə yüksələn mütəxəssis, nəhayət, ən yüksək zirvəyə çatıb. Bu, milli komandalarda sistemli işin nə qədər əhəmiyyətli olduğunun göstəricisidir.

ONUN ƏLLƏRİNDƏ BÖYÜYƏN UŞAQLAR



Mütəxəssisin milli komanda sisteminə daxil olması 2013-cü ildə ölkənin U-19 yığmasına baş məşqçi təyin edilməsi ilə başlayıb. Beş il sonra De la Fuente U-21, üç il sonra U-23, nəhayət, 2022-ci ildə əsas yığmaya baş məşqçi təyin edilib. 10 ildən artıq müddətdir "qırmızılar"ın sistemində olan 63 yaşlı mütəxəssis hər kateqoriyada nəticə verməyi bacarıb. O, U-19 və U-21 millilərini Avropa çempionu edib. Əsas yığma ilə isə Avropanın ən güclüsü olana qədər Millətlər Liqasını qazanıb. Bununla da Luis de la Fuente U-19, U-21 və əsas komandalarda Avropa çempionu olan və Millətlər Liqasında zəfər qazanan ilk baş məşqçi kimi tarixə düşdü.

Maraqlıdır ki, bu yay İspaniya millisi ilə çempionluq sevinci yaşayan qapıçı Unay Simon və yarımmüdafiəçi Mikel Merino qeyd olunan turnirlərin hər birində Fuentenin rəhbərliyi altında çıxış ediblər. U-21 Avropa çempionluğu qazanan heyətdən Fabian Ruis, Dani Olmo və finalda qələbə qolunun müəllifi olan Mikel Oyarsabal əsas komandada da eyni uğuru təkrarlayıb. Rodri isə U-19 və A millidə bunu bacarıb.

İspaniya və Fuente misalı uzunmüddətli strategiyanın necə effekt verdiyinə dair çox böyük nümunədir. Bu, Azərbaycan kimi futbolda ardıcıllığa nail olmaq istəyən ölkə üçün yaxşı nümunədir.